RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 223 (8246) ÇƏRŞƏNBƏ, 9 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Qeyri-neft məhsullarının ixracı getdikcə artır

## Bu, müəyyən edilmiş hədəflərə nail olunduğunun daha bir göstəricisidir

**Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən iqtisadi islahatların bir məqsədi də ölkənin neftdən asılılığının aradan qaldırılması məqsədilə qeyri-neft sektorunun inkişafıdır. Son 16 ildə dövlət başçısının rəhbərliyi ilə uğurla aparılan bu islahatlar nəticəsində ildən-ilə qeyri-neft sektorunda məhsul istehsalı artır. Bununla paralel olaraq həmin sahədə istehsal edilən məhsulların xarici bazara ixracı da çoxalır.**

Son dövrlər ixrac olunan məhsullarda qeyri-neft sektorunun payının artması məhz aparılan uğurlu islahatların nəticəsidir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın cari ilin sentyabr ayı üçün hesabatı təqdim olunub. Həmin sənəddə qeyd edilir ki, cari ilin yanvar-avqust ayı ərzində ölkəmizin ixracı 13,5 milyard dollar təşkil edib. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 5 faiz çoxdur. Hesabat dövründə qeyri-neft sektoru üzrə ixrac 1 milyard 277 milyon dollar dəyərində olub. Beləliklə, bu ilin 8 ayında qeyri-neft sektoru üzrə ixracın həcmi 17 faiz artıb.

Bu ilin yanvar-avqust ayları ərzində ixrac olunan qeyri-neft məhsullarının çox hissəsi Rusiyaya, Türkiyəyə, İsveçrəyə, Gürcüstana, İtaliyaya göndərilib. Qeyd edək ki, həmin dövrdə ixracatda ilk yerdə pomidor satışı dayanır, ikinci yerdə qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), üçüncü yerdə isə pambıq mahlıcı qərarlaşıb.

Məlumdur ki, qeyri-neft sektorunda əhatə etdiyi coğrafiyaya və bu sahə ilə məşğul olan əhalinin sayına görə kənd təsərrüfatı üstün mövqedədir. Dövlətin aqrar sektorda həyata keçirdiyi ardıcıl islahatlar, fermerlərə dövlət tərəfindən verilən dəstək bu sahədə məhsul istehsalının ildən-ilə artmasına imkan yaradır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında aqrar sektorun ölkə üçün xüsusi əhəmiyyətini qeyd edərək demişdir: "Kənd təsərrüfatı çox ciddi, böyük sahədir. Əhalinin, demək olar ki, yarısı kənddə yaşayır. Ona görə bu sahə daim diqqət mərkəzindədir. İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr var. Proqrama görə, bizdə, ümumiyyətlə, 51 aqropark və iri fermer təsərrüfatları yaradılmalıdır.

*Ardı 5-ci səh.*



# Qobu qəsəbəsində yeni bir şəhər yaradılıb

## Prezident İlham Əliyev məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak edib

Oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qeyd edək ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının uğurlu icrasını hər bir vətəndaş öz həyatında hiss edir. Bu baxımdan qaçqın və məcburi köçkünlərə göstərilən xüsusi qayğı da böyük əhəmiyyət daşıyır. Ulu Öndər Heydər Əliyev bu qəbildən olan insanlara daim diqqət və qayğı ilə yanaşıb, onların sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görüb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da fəaliyyətlərində qaçqın və məcburi köçkünlərə diqqət və qayğını davam etdirirlər. 2003-cü ildən bugünədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb, bir çox proqramlar qəbul edilib. Dövlət səviyyəsində bu istiqamətdə atılan addımlarla yanaşı, Heydər Əliyev Fondu da fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir.

*Ardı 2-ci səh.*

# Milli maraqları qətiyyətlə və layiqincə təmin edən lider

## İlham Əliyevin Soçi səfəri Azərbaycanın beynəlxalq imicinin daha da yüksəlməsinə təsir edən mühüm siyasi hadisə oldu

Prezident İlham Əliyevin oktyabrın əvvəlində Rusiyaya işgüzar səfəri Azərbaycanla bu ölkə arasındakı münasibətlərin mehriban qonşuluq və dostluq prinsiplərinə söykənərək inkişaf etdiyini göstərdi. Ən əsası bir daha təsdiq olundu ki, bu münasibətlər həm də strateji xarakter daşıyır və Azərbaycan Rusiyanın Cənubi Qafqazda ən mühüm siyasi-iqtisadi tərəfdaşıdır. Azərbaycan Prezidentinin səfərinə münasibət bildirən rusiyalı politoloqlar da iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdilər.

### Moskva ilə Bakının dostluğunun növbəti təzahürü

Regionda və dünyada baş verən proseslərlə əlaqədar Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcək inkişafı barədə fikirlərini bölüşən tanınmış rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutu qeyri-kommersiya tərəfdaşlığının baş direktoru Sergey Markov deyib ki, ölkələr arasında münasibətlərdə "Bakı ab-havası" formalaşıb. Onun sözlərinə görə, "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasına Azərbaycan Prezidenti İlham Əliyevin dəvət edilməsi Moskva ilə Bakı arasında dostluq münasibətlərinin növbəti təzahürüdür.

*Ardı 7-ci səh.*

# Parlament Əli Əsədovun Baş Nazir vəzifəsinə təyin olunmasına razılıq verdi

Oktyabrın 8-də Milli Məclisin növbəti iclası keçirilib.

İclası açan Milli Məclisin Sədri Oqtay Əsədov əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin "Əli Hidayət oğlu Əsədovun Azərbaycan Respublikasının Baş Naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında" parlamentə ünvanlandığı təqdimatı oxuyub.




Sədr qeyd edib ki, Baş Nazir Novruz Məmmədov vəzifəsindən azad edilməsi ilə bağlı Prezident İlham Əliyevə müraciət edib. Baş Nazir postuna yeni namizəd Əli Əsədov hansı vəzifədə çalışmasından asılı olmayaraq bilik və bacarığını işə sərf edən, iqtisadi məsələlərə dərindən bələd olan mütəxəssisdir. Əminəm ki, Prezident İlham Əliyevin bu seçimi dövlətimiz, xalqımız üçün uğurlu olacaq.

Milli Məclisin deputatları Siyavuş Novruzov, Vahid Əhmədov, Hikmət Məmmədov, Fəzail Ağamalı Əli Əsədovun müsbət insani keyfiyyətlərə, yüksək savada, dərin iqtisadi biliklərə malik, dövlətə və dövlətçiliyə sadiq bir mütəxəssis olması barədə fikirlərini söyləyiblər.

Müzakirələrdən sonra məsələ səsə qoyulub və Milli Məclis Əli Əsədovun Azərbaycanın Baş Naziri təyin edilməsinə razılıq verib.

İclasda çıxış edən Əli Əsədov ona göstərilən bu yüksək etimada görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Əli Əsədov qeyd edib ki, müasir Azərbaycan müstəqillik illərində mürəkkəb və şərəfli yol keçib. Dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyev 1990-cı illərin əvvəllərində Azərbaycanı böhran vəziyyətindən qurtarıb və real müstəqilliyimizi inkişaf etdirib. Bu gün Prezident İlham Əliyevin səyi nəticəsində ölkəmiz sürətli inkişaf yolu keçir. Qazanılan möhtəşəm nailiyyətlər Azərbaycan Prezidenti İlham Əliyevin əməyinin nəticəsidir.

*Ardı 3-cü səh.*

## Ə.H.Əsədovun Azərbaycan Respublikasının Baş Naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alıram:

1. Əli Hidayət oğlu Əsədov Azərbaycan Respublikasının Baş Naziri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

## N.İ.Məmmədovun Azərbaycan Respublikasının Baş Naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alıram:

Novruz İsmayıl oğlu Məmmədov Azərbaycan Respublikasının Baş Naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

Aida İmanquliyeva - 80

# Şərqşünaslıq elmimizin dünya şöhrətli nümayəndəsi

Azərbaycan şərqşünaslığı qədim və dərin tarixi köklərə bağlıdır. Böyük Azərbaycan mütəfəkkirləri və alimləri Bəhmənyar, Xətib Təbrizi, Şihabəddin Sührəvərdi, Mahmud Şəbüstəri, Nizami Gəncəvi, Məhəmməd ibn Hinduşah Naxçıvani, A.Bakıxanov, M.F.Axundzadə, Mirzə Kazım bəy və başqaları öz qiymətli əsərləri ilə Şərq xalqlarının tarix, ədəbiyyat və fəlsəfəsinin inkişafına əvəzsiz töhfələr vermişlər.



Azərbaycanda məşhur şərqşünaslar çox olmuşdur: ərəb, fars və türk dillərinin gözəl biliciləri, bu dillərdə yazılmış möhtəşəm poeziya nümunələrinin yorulmaz tədqiqatçıları, Azərbaycanın böyük tarixçiləri, islamşünaslar, mətnşünaslar...

Hər əsəri elmdə yeni söz, yeni tapıntı olan bu parlaq alimlər, işıqlı şəxsiyyətlər öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslığının özünəməxsus simasını müəyyənləşdirib, keçmiş sovet şərqşünaslığında xüsusi "Azərbaycan məktəbi"nin mövcudluğunun etiraf olunmasını təmin etmişlər. Görkəmli şərqşünas-alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva həmin məktəbin inkişafında böyük xidmətləri olan, eyni zamanda keçmiş ittifaq və dünya miqyasında onu layiqincə təmsil edən nüfuzlu alimlərimizdən olmuşdur. Dərin nəzəri biliyi, analitik təfəkkürü, geniş erudisiyası, bir neçə Şərq və Qərb dillərini bilməsi sayəsində apardığı tədqiqatlar və yazdığı əsərlər qısa vaxt ərzində ona nəinki keçmiş Sovetlər Birliyində, hətta bir çox xarici ölkələrdə geniş şöhrət gətirmişdir.

*Ardı 6-cı səh.*

# Qobu qəsəbəsində yeni bir şəhər yaradılıb

## Prezident İlham Əliyev məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak edib













*Əvvəli 1-ci səh.*

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və "Paşa Holding" şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev dövlət başçısı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verdilər.

Bildirildi ki, təməli ötən ilin sentyabrında qoyulan bu kompleksdə ümumilikdə onmərtəbəli 13 bina ilə yanaşı, məktəb, uşaq bağçası, poliklinika, gimnastika, güləş və trenajor zalları, şahmat mərkəzi, market, iaşə obyektləri yaradılıb. Ərazidə, eyni zamanda, istirahət parkı, uşaq əyləncə meydançası, eləcə də 3 idman meydançası inşa olunub. Bir sözlə, burada sakinlərin sosial məsələlərinin həlli üçün hərtərəfli infrastruktur qurulub.

Kompleksin ərazisində inşa olunan məktəb binası ilə tanışlıq zamanı qeyd olundu ki, təhsil ocağı 780 şagird yerlikdir. Bütün zəruri avadanlıqla təchiz edilən binada şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli şərait yaradılıb.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə təhsilin inkişafı istiqamətində atılan addımlardan doğma yurdlarından didərgin düşən soydaşlarımız da yüksək səviyyədə bəhrələnirlər. İndiyədək istifadəyə verilən bu cür şəhərciklərdə məcburi köçkün uşaqların təhsilini normal təmin etmək üçün müasir məktəblər yaradılıb. Bütün bunlar ümumilikdə ölkədə təhsilin yüksək səviyyədə olmasına xidmət edir, bu sahənin maddi-texniki bazasını möhkəmləndirir.

"Qobu Park-2" yaşayış kompleksinin ərazisində uşaq bağçası da fəaliyyət göstərəcək. Bağça ilə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, 220 yerlik uşaq bağçası da lazımi inventarla təchiz olunub. Burada balacaların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün bütün imkanlar var.

Bu bağçanın timsalında da aydın görmək olur ki, gələcəyimiz olan körpələrin sağlam və bilikli böyüməsi üçün dövlət səviyyəsində olduqca əhəmiyyətli layihələr icra olunur. Ölkəmizdə müasir səviyyədə uşaq bağçaları, körpələr evlərinin yaradılmasında Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin də mühüm əhəmiyyəti var.

Sonra yaşayış komplekslərinin maketləri ilə tanışlıq oldu. Bildirildi ki, təməli ötən ilin sentyabrında qoyulan "Qobu Park-2" yaşayış kompleksi məcburi köçkünlər üçün salınmış 106-cı qəsəbədir. Sifarişçisi "Paşa Holding", podratçısı isə "Kristal Abşeron" MTK olan yeni qəsəbə ötən il Lökbatanda istifadəyə verilən "Qobu Park-1" yaşayış kompleksinin yanında inşa edilib. Hazırda "Qobu Park-3" yaşayış kompleksinin də tikinti işləri sürətlə davam etdirilir. Bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Qobu Park-2" yaşayış kompleksindəki mənzillərdə yaradılan şəraitlə tanış oldular. Qeyd olundu ki, kompleksdə bir, iki, üç və dördotaqlı olmaqla ümumilikdə 1300 mənzil var. Bütün mənzillər zəruri inventarla təchiz edilib.

Sonra dövlət başçısı və birinci xanım Xocalı rayonundan olan məcburi köçkün, şəhid ailəsi Fəridə Cabbarovanın mənzilində oldular. Bildirildi ki, dördotaqlı mənzil bütün mebellərlə təchiz olunub.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəridə Cabbarovanın ailə üzvləri ilə görüşüb söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Siz yeni mənzilə köçürsünüz. Bu münasibətlə sizi və digər bacı-qardaşlarımızı təbrik edirəm. Bu iki yaşayış kompleksinin istifadəyə verilməsi çox gözəl, əlamətdar hadisədir. Burada 1300 köçkün ailəsi ən müasir şəraitdə yaşayacaq. Burada gözəl binalar tikilib, infrastruktur yaradılıb, bütün təchizat təşkil olunub - qaz, su, işıq, istilik, gözəl həyət. Ona görə bu kompleksin istifadəyə verilməsi, əlbəttə ki, ölkəmiqyaslı bir hadisədir.

"Qobu-1" yaşayış kompleksi keçən il istifadəyə verilmişdir və biz açılışda iştirak etmişdik. Orada artıq 1000-dən çox ailə yaşayır, burada isə 1300 ailə və "Qobu-3" yaşayış kompleksində də 1300 ailə yaşayacaq. Beləliklə, 4000-ə yaxın ailə bu gözəl şəraitlə təmin olunub. Məktəblər, uşaq bağçaları, ticarət mərkəzi, tibb məntəqəsi - yaşayış üçün bütün lazımi şərait yaradılıb. Bu qəsəbəyə gözəl yollar da çəkilib, ona görə nəqliyyat problemləri də olmayacaq. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti ağır vəziyyətdə yaşayan vətəndaşların problemlərinin həllində çox böyük addımlar atır. Bildiyiniz kimi, yüz minlərlə köçkün ailəsi evlərlə təmin edilib, yüzdən çox şəhərcik salınıb. Çadır şəhərciklərinin ləğv edilməsi prosesi 2007-ci ildə başa çatıb və hazırda köçkünlərin yaşayışı üçün çox gözəl şərait yaradılıb. Eyni zamanda, hələ də ağır vəziyyətdə yaşayan soydaşlarımız var, - yataqxanalarda, məktəblərdə, uyğun olmayan binalarda, - onların da problemləri həll olunacaq. Hər il Azərbaycanda minimum 6 min köçkün ailəsi evlərlə təmin olunacaq. Orta hesabla hər bir ailədə 5 nəfər vardır, beləliklə, hər il 30 min insan üçün biz yeni evlər, mənzillər tikib təhvil veririk. Yəni bu, əslində bir şəhərdir. İndi Qobu qəsəbəsində yeni bir şəhər yaradılıb. Bütün infrastruktur var. Təsadüfi deyil ki, beynəlxalq təşkilatlar, o cümlədən BMT Azərbaycanda məcburi köçkünlərə göstərilən qayğı və diqqətin səviyyəsini çox yüksək qiymətləndirir, bir çox ölkələr üçün Azərbaycanda bu sahədə aparılan siyasət bir nümunə kimi göstərilir. Eyni zamanda, bildiyiniz kimi, bu il məcburi köçkünlərə dövlət tərəfindən ayrılan müavinətin həcmi də 50 faiz artıbdır. Hər bir köçkünə bu məbləğ verilir, baxmayaraq ki, o, işlə təmin olunub, təmin olunmayıb. Bu da bizim sosial siyasətimizin nəticəsidir. Biz bundan sonra da ardıcıl olaraq bu siyasəti aparacağıq, hələ də ağır vəziyyətdə yaşayan soydaşlarımızın yaşayış problemlərini həll edəcəyik.

Ancaq əlbəttə ki, əsas məsələ bu gün hələ də işğal altında olan torpaqlar azad ediləndən sonra orada yeni binaların, kəndlərin, şəhərlərin salınmasıdır. Bunu da biz edəcəyik, necə ki, vaxtilə işğal altında olmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisində yerləşən Şıxarx qəsəbəsində bu gün gözəl bir şəhərcik salınıb. Orada da 1000-dən çox ailə məskunlaşıb. Aprel döyüşləri nəticəsində azad edilmiş torpaqlarda yeni qəsəbə salınıb - Cocuq Mərcanlı qəsəbəsi, hansı ki, bu gün Azərbaycan xalqının əyilməz ruhunun, iradəsinin təcəssümüdür. Evlərlə təmin edilmiş soydaşlarımız, - onların bir çoxu uzun illər Biləsuvarda salınmış köçkün şəhərciyində yaşayıb, - böyük həvəslə öz doğma torpaqlarına qayıdıblar. Bu gün orada həyat qaynayır, əkin-biçin prosesi gedir, abadlıq işləri aparılır, iş yerləri yaradılır.

Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən tanınır və biz ardıcıl olaraq bu istiqamətdə öz siyasətimizi aparırıq. Ərazi bütövlüyümüzlə bağlı heç bir kompromisdən söhbət gedə bilməz. Bu, danışıqlar mövzusu deyil və olmayacaq. Daha da güclü olmalıyıq və güclənirik. Həm iqtisadi gücümüz artır, eyni zamanda, vətəndaşlarımızın əyilməz iradəsi, öz yurdundan didərgin salınan soydaşlarımızın əzmi torpaqlarımızın azad olunacağı günü yaxınlaşdırır.

Bu gözəl yaşayış yerini özəl sektor inşa edib. Bu da bir yenilikdir. Çünki bu günə qədər 100-dən çox şəhərciyi Dövlət Neft Fondunun xətti ilə tikmişik. Mən çağırış etmişdim ki, Azərbaycanda böyük şirkətlər sosial məsuliyyət daşımalıdırlar. Demişdim ki, imkanlı sahibkarlar ağır vəziyyətdə yaşayanlara əl uzatmalıdırlar və şadam ki, mənim çağırışıma özəl qurumlar müsbət reaksiya verib. "Qobu-1", "Qobu-2" və bu gün tikilməkdə olan "Qobu-3" yaşayış kompleksləri 100 faiz özəl sektorun hesabına salınıbdır. Mən bu fürsətdən istifadə edərək bütün Azərbaycan şirkətlərinə, - kimin böyük imkanı var, kimin o qədər də böyük imkanı yoxdur, - deyirəm ki, həmrəylik göstərməlidirlər, sosial məsuliyyət daşımalıdırlar. Bizim cəmiyyətimizdə qeyri-bərabərlik, təbəqələşmə, yoxsullar olmamalıdır. Yoxsulluqla bağlı mübarizə indi görün nə qədər gözəl nəticə verir. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bunu qeyd edir. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir, o da olmamalıdır. Amma biz bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsi 10-15 faizdir. Yəni bu, sadəcə olaraq, necə deyərlər, müqayisə üçün səslənən rəqəmdir.

Ona görə özəl sektor daha da məsuliyyətli olmalıdır. Dövlət bu qədər kömək göstərir, kreditlər verir, şərait yaradır, infrastruktur layihələrini icra edir. Ona görə özəl sektor gərək bu işlərə qoşulsun və Dövlətqaçqınkoma müraciət etsin, desin ki, mən istəyirəm köçkünə bir, beş, yüz mənzil verim. Bu, olmalıdır. Əminəm ki, bu sözlərimdən sonra Dövlətqaçqınkoma ediləcək müraciətlərin sayı çox olacaq. Sizi bir daha təbrik edirəm.

**Fəridə Cabbarovanın qardaşı Elxan QASIMOV:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Siz bu günə qədər harada yaşayırdınız?

**Elxan QASIMOV:** Lökbatan qəsəbəsində.

**Prezident İlham ƏLİYEV:** Kirayədə?

**Elxan QASIMOV:** Xeyr, müvəqqəti verilmiş fin evlərdə.

**Prezident İlham ƏLİYEV:** O evlər nə vaxt tikilmişdi - bəlkə də 50-60 il bundan əvvəl. Onlar indi söküldü?

**Rövşən RZAYEV:** Bəli, qamış evlərdə yaşayanların hamısı "Qobu Park-1"ə köçürüldü. Mən məruzə etmişdim. Mehriban xanımın tapşırığı var idi, ən çətin vəziyyətdə, zirzəmilərdə, həm də qamış evlərdə yaşayanların hamısı son nəfərə qədər köçürüldü və indi "Qobu Park-1"də yaşayırlar.

**Prezident İlham ƏLİYEV:** Bu problemi mən çoxdan bilirəm. Çünki mən ilk dəfə Qaradağ rayonundan deputat seçilmişdim. Hələ o vaxt mənim təşəbbüsümlə "Ümid" qəsəbəsi salındı. Mən o vaxt millət vəkili idim. "Ümid" qəsəbəsində, təqribən, 300 mənzil inşa etmişdik. Sonra növbəti mərhələdə daha da genişləndi.

**Rövşən RZAYEV:** İndi orada 500 mənzil var.

**Prezident İlham ƏLİYEV:** Eyni zamanda, Lökbatan qəsəbəsində mənim təşəbbüsümlə bir beşmərtəbəli bina da tikilmişdi və o binanın açılışına Ulu Öndər Heydər Əliyev də gəlmişdi. O vaxt bu, bir yenilik idi. Çünki dövlətin o qədər də böyük vəsaiti yox idi. Ona görə o vaxt mən təşəbbüs göstərmişdim, bu təşəbbüsə qoşulanlar da oldu, bu addımları atdıq. Yadımdadır, o qamış evlər həmişə narahatlıq yaradırdı. Çünki onlar vaxtilə müvəqqəti tikilmişdi və yaşamaq üçün tamamilə yararsız idi.

**Rövşən RZAYEV:** Mehriban xanımın tapşırığı ilə mən orada olmuşdum və bütün şəkilləri təqdim etmişdim. İndi onlar "Qobu Park-1"də yaşayırlar. Bütün ailələr hər zaman təşəkkürlərini bildirirlər.

**Fəridə CABBAROVA:** Cənab Prezident, Sizi xoş gördük. Siz bilirsiniz ki, bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, məcburi köçkünlər, o cümlədən bütün Azərbaycan vətəndaşları Sizi çox istəyir, Sizin fəaliyyətinizə çox böyük dəyər verirlər. Mən yuxumda belə görməzdim ki, Sizinlə, Mehriban xanımla görüşərəm, bir süfrə arxasında əyləşərəm. Bu gün mənim üçün ikiqat bayramdır ki, həm bizə ev verildi, həm də Sizinlə - Ali Baş Komandanımızla bir çay süfrəsi arxasında əyləşmişik. Sizə böyük təşəkkür edirik.

Siz bizim qürur yerimizsiniz. Sizin cəsarətiniz danılmazdır. Bu yaxınlarda beynəlxalq tədbirdə Dağlıq Qarabağ haqqında cəsarətlə dediyiniz sözlərə görə Sizinlə fəxr edirik. Qürur duyuruq ki, bizim arxamızda Sizin kimi dəyərli vətən oğlumuz, qardaşımız var.

Sizə bütün qaçqınlar, məcburi köçkünlər, şəhid ailələri adından böyük təşəkkür edirik. Sizin daimi diqqətiniz şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin üzərindədir. Bunu heç kim dana bilməz. Bunu danmaq üçün gərək kar, kor olasan ki, bu gözəllikləri, bu diqqəti hiss etməyəsən.

Özüm haqqında deyim ki, biz əslən laçınlıyıq. Faciədən doqquz ay öncə Xocalı şəhərinə köçmüşdük. Yoldaşım təhsilli idi, o vaxt Xocalı gözəlləşir demişdilər, ora iş üçün getmişdi. Bir aydan sonra dedi, mən utanaram xocalılılardan ki, burada vəzifə axtarım. Mən hərbçi olacağam. Həmin gün Xocalı özünümüdafiə batalyonuna yazıldı və son damla qanına qədər döyüşdü. Övladlarımız Nicat doqquz aylıq idi, Fuad isə iki yaşında. Yoldaşım dedi ki, "Fəridə, səni qohumlarım çıxaracaq. Mən arxada döyüş yoldaşlarımın üzünə baxa bilmərəm, bir kişi kimi başımı qaldıra bilmərəm".

O gündən də vətəni üçün getdi, heç məzarı da yoxdur. Övladlarım atalarına layiq böyüdülər, təhsil alıb, hərbi xidmətlərini kişi kimi başa vurub, çavuş rütbəsi ilə gəldilər. Hər ikisinə təhsil vermişəm, Fuad ixtisasca qarmon müəllimidir, Nicat universitet bitirib. Aprel döyüşlərində mən gecə saat 4-də bildim ki, hər iki övladım eyni döyüş bölgəsindədir. Mənə demədən bir-birinə məsləhət ediblər. Fuad deyib, "Nicat, sən subaysan, sən getmə, anamı, ailəmi saxla, mən gedim". Nicat da deyib ki, "yox, Fuad, sən anaya, ailə-uşağa bax, mən gedim". Yəni mən fəxr edirəm ki, onları atalarına layiq böyüdə bilmişəm. Nəinki mənim oğlanlarım, şükür Allaha ki, bütün şəhid övladları layiqli vətənpərvər oğullardırlar. İnşallah, torpaqlarımız sülh yolu ilə alınsın, amma belə olmasa, onların hər biri Sizin əmrinizlə torpaqlarımızı azad etməyə hazırdır.

Çox sevindim. Bugünkü sevincimi bəlkə də 27 ildə yaşamamışdım. Bəlkə də mənim gözlərim sevincdən bu günə qədər dolmamışdı. Allah Sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Gözəl övladlar böyütmüsünüz, onlar vətən uğrunda vuruşmağa hər an hazırdırlar. Azərbaycan gənclərinin mütləq əksəriyyəti vətənpərvərlik ruhunda tərbiyə alır, vətənə bağlıdır və vətən üçün hər bir addım atmağa hazırdırlar.

O ki qaldı şəhid ailələrinin sosial müdafiəsinə, bu, daim diqqət mərkəzindədir. Şəhid ailələri üçün həm maddi təminat təşkil edilib, eyni zamanda, onlara mənzillər verilir. Minlərlə şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin edilib. Qarabağ döyüşlərində fiziki imkanlarını itirmiş soydaşlarımıza bu il 600 avtomobil, son illərdə isə minlərlə avtomobil verilib. Mən deyə bilərəm ki, Azərbaycanda bu kateqoriyadan olan insanlara dövlət tərəfindən göstərilən qayğı doğrudan da bir örnəkdir. Çünki bu gün biz də, siz də bütün dünyada gedən prosesləri izləyirik, görürük ki, müxtəlif ölkələrdə qaçqınlar böhranı yaşanır, o cümlədən Avropada və o qaçqınlar hansı vəziyyətdə yaşayırlar. Onların bir çoxu dənizdə batır, bir çoxu isə, elə bil ki, xüsusi qəfəs içində saxlanılır. Onlara qeyri-insani münasibət göstərilir, şəxsiyyəti alçaldılır və bir çoxları tamamilə yararsız yerlərdə yaşayır. Televizorda bunu görürük. Mən 2003-cü ildə bəyan etmişdim ki, prezident seçilərəmsə, ilk növbədə qaçqın şəhərciklərini ləğv edəcəyəm. Çünki tamamilə bizə yaraşmayan bir mənzərə idi. Düzdür, o vaxta qədər bizim maddi imkanlarımız yox idi ki, bunu edək. Ona görə bunları biz 2007-ci ildə ləğv etdik, bir dənə də qalmadı. Ondan sonra keçdik yataqxanalara, məktəblərə, uyğunsuz binalarda yaşayan soydaşlarımızın problemlərinin həllinə. İndi hər il bu məqsədlə ancaq tikinti üçün yüz milyonlarla manat ayrılır. Bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Biz hamımız əminik ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bizim gücümüz də artır, əhalimiz də artır. Bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. İllər keçəcək, əhalimiz daha da artacaq, gücümüz daha da artacaq və istədiyimizə nail olacağıq.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cəmiyyətdə vahid yanaşma var. Bizim haqq işimizi mən bütün kürsülərdə arqumentlərlə, tarixi faktlarla, reallıqlarla, beynəlxalq hüquq əsasında müdafiə edirəm və bu arqumentlərə qarşı hər hansı bir irad tutmaq qeyri-mümkündür. Çünki mən həqiqəti deyirəm və bunu elə kürsülərdən deyirəm ki, bütün dünya eşitsin. Ermənistanın baş naziri Xankəndidə yığılmış bir neçə adamın qarşısında o cəfəng sözləri demişdir. Mən başqa bir beynəlxalq tədbirdə ona cavab verə bilərdim. Amma o tədbirin auditoriyası, tutaq ki, 1000 nəfər, 2000 nəfər olardı. Mən onu elə bir yerdə dedim ki, hər kəs eşitsin - canlı efirdə, Rusiyada, mötəbər "Valday" klubunun panelində dedim və bunu bütün dünya eşitdi. Yəni sizə deyim ki, əgər işlər məhz təmkinlə, ağılla qurulursa, zərbələr də dəqiq olur. Elə zərbə vuruldu ki, o zərbədən çətin ki ayılsınlar. Çünki kontrarqument yoxdur, ancaq yalan-palan danışmaqla düzəlmir. Əvvəllər - münaqişə ilə bağlı məlumat olmayan dövrdə, əlbəttə, bütün yalanları yayırdılar. Hər bir ölkədə onların diaspor təşkilatları var idi, bizim isə heç nəyimiz yox idi. Ona görə münaqişə ilə bağlı təhrif edilmiş faktları onlar ortaya qoymuşlar və bir çox hallarda nail olmuşlar ki, onlara inansınlar. Bu gün biz informasiya dövründə, internet dövründə yaşayırıq. Həqiqət var və bunu mən çatdırmışam. Hər kəs bilir ki, Aranlı-Dağlı Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq tərəfindən tanınan Azərbaycan torpağıdır və Qarabağ Azərbaycandır və nida işarəsi, vəssalam.

**Fəridə CABBAROVA:** Mən bir şeyi də qeyd edim ki, Sizin şəhid ailələrinə birdəfəlik 11 min manat yardımınız, demək olar, subay olan bir çox şəhid övladlarına dəstək oldu. İnşallah, bu yaxınlarda mən Nicata toy etmək istəyirəm. Arzu edərdim ki, Siz Nicatın toyunda iştirak edib xeyir-dua verəsiniz.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm bəri başdan. Allah xoşbəxt eləsin.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Artıq bilirsiniz nə zaman olacaq?

**Prezident İlham ƏLİYEV:** Tarixi məlumdur?

**Fəridə CABBAROVA:** Bəli, deyərik.

**Prezident İlham ƏLİYEV:** Mehriban xanıma deyərsiniz, məmnuniyyətlə gələrik.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Böyük məmnuniyyətlə gəlib iştirak edərəm.

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz ki, Mehriban xanım da bu məsələ ilə çox ciddi məşğuldur. Onun yeni fəaliyyət dövründəki ilk tədbiri məhz məcburi köçkünlərin problemlərinə həsr edilmişdir. Bu məsələni daim diqqətdə saxlayır və bu şəhərciklərin ərsəyə gəlməsində də onun böyük əməyi vardır.

**Fəridə CABBAROVA:** Bəli, biz onu bilirik. Mehriban xanım keçən dəfə də buraya gəlmişdi. Hətta onu o qədər öpdülər ki, mən dedim, ay Allah, Mehriban xanımın nə qədər səbri var. Çox sağ olsun, Mehriban xanımın da gördüyü işlər danılmazdır. Hər ikinizə minnətdarıq, Allah Sizləri Azərbaycana çox görməsin. Həmişə Sizi bir yerdə görək, ölkəmizin başında olasınız və xalqımız Sizinlə daim fəxr etsin, qürurlansın.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm.

**Elxan QASIMOV:** Yeni evimizdə ilk qonaq Siz olduğunuz üçün çox sağ olun. Sizin sözləriniz bizə ruh verir. Biz Sizin rəhbərliyinizlə Qarabağı azad edəcəyik, səhhətimdə problem olsa da, Sizin hər bir əmrinizə hazıram. Sağ olun.

**Fəridə Cabbarovanın nəvəsi:** Doroqoy Prezident, ya vas uvajayu i vas lyublyu.

**Fəridə CABBAROVA:** Birinci sinfə gedir, rus dilində oxuyur.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl. Sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7, I kitab, maddə 1492; 2019, № 3, maddə 414) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə”də və “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu”nda dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

# *Əli HƏSƏNOV*: “İlham Əliyevin bir çıxışı Ermənistanı qarışdırdı”




Prezident İlham Əliyevin Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında beynəlxalq hüquqa əsaslanan sərt, qətiyyətli və məntiqli bəyanatı Ermənistandakı daxili siyasi situasiyanı dəyişib, Ermənistanın baş naziri Nikol Paşinyanın tərəfdarları və əleyhdarları arasındakı qarşıdurmanı daha da gücləndirib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov “Facebook” sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda bəhs edib.

Statusda deyilir: “Xatırladım ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə diqqət yönəltdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur yerinə yetirilmədiyini vurğuladı. Prezident İlham Əliyev Ermənistanın baş nazirinin “Qarabağ Ermənistanın hissəsidir və nöqtə” bəyanatının yalan olduğunu əsaslandıraraq cavab verdi: “Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Prezident İlham Əliyevin çıxışının əsas leytmotivi Dağlıq Qarabağ münaqişəsi və bu münaqişə ilə bağlı mövcud vəziyyətlə bağlı idi. Azərbaycan Prezidenti münaqişənin yaranması tarixindən və dalana dirənmiş danışıqlardan ətraflı bəhs etdi, atəşkəs rejiminə rəğmən Ermənistanın təxribatları səbəbindən davam edən hərbi əməliyyatlardan danışdı.

Paşinyanın son aylarda qapıldığı aqressiv ritorika, xüsusilə də Dağlıq Qarabağda, Xankəndidəki terrorçu hərbi xuntanın və dünyanın müxtəlif ölkələrindəki erməni diasporunu təmsil edən şəxslərin, habelə erməni lobbisinin nümayəndələrinin önündə çıxış edərkən verdiyi absurd bəyanatlar, əslində, Ermənistanın işğalçılıq siyasətinin etirafının məntiqi davamı, rəsmi İrəvanın qapıldığı əsassız eyforiya idi. Şovinizm, aqressiya və işğalçılığın terror üzərində köklənmiş üzvi sintezinə çevrilən siyasət yürüdən Ermənistan rəhbərliyi ölkə iqtisadiyyatının uçurumda olmasının, işsizlik və mühacirətin milli fəlakət səviyyəsinə çatmasının fərqində olduğundan məhz belə ritorika vasitəsilə erməniləri sakitləşdirməyə çalışırdı.

Təsadüfi deyildi ki, Paşinyan, əslində, Dağlıq Qarabağda terrorçu-separatçı dəstələrdən birinin banilərindən və komandirlərindən olan, 1992-ci ildə döyüşdə öldürülmüş Leonid Azqaldyanın dediyi kəlmələri təkrarlamışdı. Paşinyan terrorçunun sözünü şüara çevirməklə rəsmi İrəvanın işğalçılıq, terror və aqressiv millətçilik siyasəti yürütdüyünü təsdiqləmiş oldu. Terrorçudan iqtibasa Ermənistanın əvvəlki prezidentləri ilə yanaşı, ən qatı və radikal siyasətçiləri belə, cürət etmirdilər: onlar anlayırdılar ki, bu cür düşünülməmiş, absurd və isterik bəyanat faktiki olaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlardan imtina etmək, işğalçılığın etirafıdır.

Ona görə də “Valday” klubu kimi mötəbər təşkilatın beynəlxalq tribunasında, 74 ölkədən dünya elmi birliyini təmsil edən mindən çox nümayəndənin, dövlət və hökumət başçılarının, məşhur düşüncə və təhlil mərkəzlərinin rəhbərlərinin də qatıldığı tədbirdə söylənən “Qarabağ Azərbaycandır və nida işarəsi” yerində və məqamında edilmiş çıxış idi.

Paşinyan Dağlıq Qarabağda hərbi xunta rejimi təmsilçiləri, yaxud erməni lobbisinin nümayəndələri qarşısında çıxışlarında sərt ritorika seçmiş və bununla da Ermənistanın işğalçılıq siyasətini, əslində, ifşa etmişdisə, İlham Əliyevin çıxışı nüfuzlu beynəlxalq tribunada edilmişdi. Yanaşma, zehniyyət, diplomatik məharət fərqi, konstruktivlik və destruktivlik arasında fərq bundadır.

Erməni analitiklər və ekspertlər məcburiyyət qarşısında qalaraq etiraf edirlər ki, Azərbaycan Prezidentinin sanballı, məntiqli bəyanatı Paşinyana siyasət, geosiyasət, tarix və diplomatiya dərsi oldu.

Cənab İlham Əliyevin çıxışından sonra Ermənistan mediasının “selfi adam” adlandırdığı, baş nazir kimi zəif, siyasətçi kimi həddən ziyadə primitiv saydığı Paşinyanın kəskin tənqid olunduğu yazıların, şərhlərin və açıqlamaların sayı sürətlə artır.

İrəvanın diplomatik savaşın yeni mərhələsində Bakıya tamamən məğlub olması ilə bağlı ittihamların hədsiz çoxalması N.Paşinyan administrasiyasında ciddi təlaş yaradıb. Situasiya o qədər gərginləşib ki, belə yazılardan birinin dərc olunduğu qəzetin İrəvandakı ofisinə basqın edilib, redaksiya heyəti təhdid olunub. Hücum edənlərin Paşinyanın tərəfdarları olduqları, onların baş nazirin rəhbərlik etdiyi “Mənim addımım” hərəkatının funksionerləri tərəfindən idarə olunduqları ilə bağlı faktların Ermənistan mediasında yer alması Paşinyanın saxta “xalqdan gəlmə baş nazir” imicini, ilk zamanlar ona bəslənən etimad limitini alt-üst edib.

Ermənistandakı son hadisələr, eyni zamanda Paşinyanın yalançı demokrat imicini də darmadağın edərək onun, əslində, söz və ifadə azadlığına, istənilən formada tənqidə dözümsüz, siyasi opponentlərə düşmən kimi yanaşan nasist təfəkkürlü insan olduğunu aydın şəkildə nümayiş etdirdi.

Paşinyanın baş nazir postundakı səriştəsizliyi, müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə danışıqlardakı komik davranışları, beynəlxalq tədbirlərdəki sürəkli “selfi” çəkilişləri, ölkə iqtisadiyyatının və maliyyə sektorunun dərin böhranda olması, işsizlik və yoxsulluq səviyyəsinin artımı kimi problemlər Ermənistanda yeni sosial partlayışa səbəb ola bilər.

Erməni mediasının yazdıqlarına görə, Nikol Paşinyan üzləşdiyi uğursuzluqlardan və düçar olduğu məğlubiyyətlər seriyasından qurtulmağa can atır, bu məqsədlə də qapalı toplantılar keçirir. Bəzi məlumatlara görə, o, rəhbərlik etdiyi “Mənim addımım” siyasi hərəkatından olan deputatları toplayaraq ölkədəki ictimai-siyasi vəziyyəti, daha doğrusu, üzləşdiyi problemləri müzakirə edərək çıxış yollarını arayıb, “Valday” klubunda Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatından sonra Dağlıq Qarabağ münaqişəsinin dinc danışıqlar yolu ilə nizamlanması prosesində bundan sonra tutacağı mövqe ilə bağlı məsləhətləşmələr aparıb.

İndi bir şey aydın olub: ictimai-siyasi və iqtisadi institutları ağır böhrana düçar olan, yürütdüyü işğalçılıq siyasəti və aqressiv ritorika səbəbindən transmilli, regional layihələrdən tamamilə kənar qalan, maliyyə, hərbi, humanitar, sosial və texniki resursları tükənməkdə olan Ermənistanın problemlərini bir zamanlar demokratik xilaskar kimi təqdim edilən Paşinyan həll edə bilməyəcək. Çünki onun özü hazırda Ermənistanın ən böyük problemlərindən biridir”.

# YAP Zaqatala, Qax və Balakən rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib



Oktyabrın 8-də Zaqatala şəhərində Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini Əli Həsənovun sədrliyi ilə YAP Zaqatala, Qax və Balakən rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin müşavirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirə iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini yad ediblər.

Müşavirədə çıxış edən Əli Həsənov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə edilən uğurlardan bəhs edib. O deyib ki, bölgələrdə keçirilən belə görüşlərin əsas məqsədi yerlərdə partiyanın ilk təşkilatlarının işi ilə yaxından tanış olmaq, eyni zamanda, ölkədə gedən proseslər barədə partiya fəallarını bir daha məlumatlandırmaq, onlarla fikir mübadiləsi aparmaqdır.

Baş Nazirin müavini Yeni Azərbaycan Partiyasının yaradılmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərini yada salıb. Bildirib ki, Ulu Öndər bu partiyanı bugünkü və gələcək Azərbaycan üçün yaradıb. Çünki Heydər Əliyev çox böyük siyasi dünyagörüşünə malik, uzaqgörən şəxsiyyət idi. Dünyada ikinci elə bir şəxsiyyət yoxdur ki, o, Heydər Əliyev kimi hər gün anılsın, xatırlansın”.

Əli Həsənov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaradılmasıdır. YAP zamanın çətin sınaqlarından şərəflə çıxıb, böyük siyasi qüvvəyə çevrilib. Bu gün hakim partiyanın 742 mindən çox üzvü var.

YAP sədrinin müavini Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə ölkəmizdə görülən işləri, xüsusilə də sosial-iqtisadi sahədə qazanılan uğurları konkret faktlarla diqqətə çatdırıb.

Ərazi ilk partiya təşkilatlarının hakim partiyanın yerlərdəki dayaqları olduğunu bildirən Əli Həsənov əvvəlki seçkilərdə olduğu kimi, qarşıdan gələn bələdiyyə seçkilərində də YAP üzvlərinin fəal iştirak edəcəyinə, yüksək nəticələrə nail olacağına inandığını vurğulayıb.

Müşavirədə YAP Balakən rayon təşkilatının sədri Azad Balayev, YAP Qax rayon təşkilatının sədri Nizami Əhmədov və YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov çıxış ediblər.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə çıxışında son illər rayonda sosial-iqtisadi sahədə qazanılan uğurlar barədə danışıb.

Müşavirənin sonunda YAP sıralarına yeni daxil olan gənclərə üzvlük vəsiqələri təqdim olunub.

# Parlament Əli Əsədovun Baş Nazir vəzifəsinə təyin olunmasına razılıq verdi

























*Əvvəli 1-ci səh.*

Bu dövr ərzində ölkəmizdə ümum daxili məhsul 3,3 dəfə artıb, iqtisadiyyata qoyulan investisiyaların həcmi 270 milyard dollara çatıb, yoxsulluğun səviyyəsi 5 faizə, işsizlik səviyyəsi 4,9 faizə enib. Ölkənin strateji valyuta ehtiyatları 26 dəfə artaraq 49 milyard dollara çatıb. Eyni zamanda əhalinin sayı 2019-cu ildə 10 milyon nəfərə çatıb. Dövlət başçısının rəhbərliyi ilə “Azəri-Çıraq-Günəşli”, “Şahdəniz”, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, “Cənub qaz dəhlizi”, Bakı-Tbilisi-Qars kimi meqalayihələr gerçəkləşdirilib. Bununla yanaşı, neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi bu sahənin də inkişafında ciddi nailiyyətlər qazandırır. Qeyri-neft ümumi daxili məhsulu 2,8 dəfə, qeyri-neft sənayesi isə 2,4 dəfə artıb. Azərbaycan kosmik ailənin üzvü olub.

“Bu gün ölkənin əsas problemi doğma Qarabağımızın işğal altında qalmasıdır. Ermənistan rəhbərliyinin məsuliyyətsiz, populist çıxışlarına Prezident İlham Əliyev tərəfindən layiqli cavab verilib: “Qarabağ tarixi və əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”. Qarabağın işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün hərbi qüdrətimizin artırılması Prezidentin gündəlik fəaliyyətinin əsas prioritetlərindəndir” deyə Əli Əsədov bildirib.

Əli Əsədov deyib ki, son illərdə ölkəmizdə sosial problemlərin həlli istiqamətində böyük uğurlar əldə edilib, sosial müdafiə sistemi beynəlxalq standartlara uyğun yenidən qurulub, sosial yardım və müavinətlər artırılıb. Uğurlu sosial siyasət nəticəsində əməkhaqqı 2,4 dəfə, pensiya isə 3 dəfə qaldırılıb. Ölkə rəhbərliyi vətənin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhid ailələri, müharibə əlilləri, xüsusi qayğıya ehtiyacı olan şəxsləri, o cümlədən məcburi köçkünləri, ahılları, uşaqları daim diqqət mərkəzində saxlayır. Bu insanlara Birinci vitse-prezident Mehriban Əliyeva məhəbbət və mərhəmətlə dolu qayğı göstərir. Azərbaycanın dayanıqlı və çoxşaxəli inkişafı dövlətin bütün qollarının ahəngdar və bərabər fəaliyyətindən asılıdır. “Bu gün bu yüksək tribunada, Azərbaycan xalqının hüzurunda, hörmətli deputatlar, sizin qarşınızda çıxış edərək Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirəcəyimə söz verirəm” deyə o bildirib.

Sonra gündəlikdəki digər məsələlərin müzakirəsinə başlanılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Notariat haqqında”, “Dövlət rüsumu haqqında” qanunlarda və Mülki Məcəllədə dəyişiklik edilməsi barədə sənədləri üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, notariat hərəkətlərinin aparılması sahəsində yeni müasir texnologiyaların tətbiqi, notariat elektron məlumat bazasının yaradılması informasiya sistemi vasitəsilə fiziki və hüquqi şəxslərə daha çevik və keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, dövlət qurumları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasına və bununla da həmin qurumlara müraciət edilməsi zərurətinin aradan qaldırılmasına xidmət edir. Təqdim olunan qanun layihəsindən irəli gələn dəyişikliklər texniki xarakter daşıyır və “Notariat haqqında” qanunda dəyişiklik edilməsi barədə 2018-ci il 15 noyabr tarixli qanuna uyğunlaşdırma çərçivəsində hazırlanıb. Əli Hüseynli müvafiq qaydada İnzibati Xətalar Məcəlləsində dəyişikliyin edilməsinin də eyni xarakterli olduğunu qeyd edib. Hər iki məsələ səsvermə yolu ilə təsdiqlənib.

Əli Hüseynli “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” və “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə sənədləri də üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, sənəd “Dövlət bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Konstitusiya qanununa uyğunlaşdırma xarakteri daşıyır və qanunun ötən dəfəki müzakirəsi zamanı deputatlar tərəfindən səsləndirilən təkliflər nəzərə alınıb. Sənəd səsə qoyularaq qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı gündəlikdəki növbəti iki məsələ - “Uşaq hüquqları haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında”, “Təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə və “Məişət zorakılığının qarşısının alınması haqqında”, “Sosial xidmət haqqında”, “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında”, “Peşə təhsili haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini üçüncü oxunuşda şərh edib. Bu sənədlərdə edilən dəyişikliklərin “Psixoloji yardım haqqında” 2018-ci il 7 dekabr tarixli qanuna uyğunlaşdırmaq məqsədilə edildiyi vurğulanıb. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Sonra Əli Hüseynli Cəzaların İcrası, Miqrasiya və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələrində “Psixoloji yardım haqqında” qanuna uyğunlaşdırmaq məqsədilə aparılan dəyişiklikləri üçüncü oxunuşda diqqətə çatdırıb. Qanun layihələri səsvermə yolu ilə təsdiq edilib.

Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov “Yerin təki haqqında”, “İstehsalat və məişət tullantıları haqqında”, “Qaz təchizatı haqqında”, “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” və “Energetika haqqında” qanunlarda dəyişiklik edilməsi barədə sənədləri ikinci oxunuşda şərh edib. Komitə sədri vurğulayıb ki, qanun layihələrində yerin təkindən istifadə, faydalı qazıntıların çıxarılması zamanı ətraf mühitə təsirin qiymətləndirilməsi, yerin təkindən istifadə hüquqlarının dayandırılması və ləğvinin əsasları, bu sahədə sənədlərin rəsmiləşdirilməsi qaydaları, yerin təkindən istifadə hüququ verən icazənin qüvvəsi dəqiqləşdirilir. Sədr müavini qanunun ilk oxunuşda müzakirəsi zamanı səsləndirilən təkliflərin də nəzərə alındığını bildirib. Sənəd səsə qoyularaq təsdiq olunub.

Əli Hüseynli “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” qanunda dəyişiklik edilməsi barədə sənədi ikinci oxunuşda müzakirəyə çıxarıb. Qeyd edilib ki, qanun layihəsi ölkə ərazisində narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində hüquqi məsələləri tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi, müvafiq hüquqi normaların dəyişən şəraitə və tələblərə uyğunlaşdırılması məqsədilə hazırlanıb. Sənəd səsə qoyularaq məqbul hesab edilib.

Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə sənədlərin təqdimatında vurğulayıb ki, layihələr 2018-ci il 12 oktyabrda qəbul edilmiş “Hərbi vəzifə və xidmət keçmə haqqında” qanuna dəyişiklik edilməsi barədə sənədə uyğunlaşdırılır. Qanun layihələri səsə qoyularaq təsdiqlənib.

İclasda Ziyad Səmədzadənin təqdimatı ilə ikinci oxunuşda “Lisenziyalar və icazələr haqqında” qanunda edilən texniki xarakterli dəyişikliklərə də baxıldı. Sənəd səsvermə yolu ilə təsdiq edilib.

Əli Hüseynli “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda müzakirəyə təqdim edib. Bildirildi ki, bu, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində təsis edilən medallardan biridir. Sənəd razılıqla qarşılanıb.

İclasda “Dövlət rüsumu haqqında” qanunda dəyişiklik edilməsi barədə sənəd ikinci oxunuşda müzakirəyə çıxarılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, qanun layihəsi parlamentdə birinci oxunuşda ətraflı müzakirə ediləndən sonra komitəyə heç bir yeni təklif daxil olmayıb. Bu sənəd də səsə qoyularaq təsdiqlənib.

Sonra “Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” qanun layihəsinə ikinci oxunuşda baxılıb. Əli Hüseynli bildirib ki, sənəd ölkə Konstitusiyasının 94-cü maddəsinin 1-ci bəndinə və 96-cı maddəsinin VI hissəsinə uyğun olaraq ölkə vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə qaydalarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimlənir. Komitə sədri vurğulayıb ki, qanunun parlamentdə ötən dəfəki müzakirəsindən sonra sənədlə bağlı ictimai dinləmələr keçirilib və daxil olan maraqlı təkliflər dəyərləndirilib. Layihə bütövlükdə və maddə-maddə səsə qoyularaq təsdiq edilib.

Bununla da Milli Məclis işini başa çatdırıb.

***AZƏRTAC***
***Foto Fərman BAĞIROVUNDUR***

## Ə.H.ƏSƏDOVUN Azərbaycan Respublikasının Baş Naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 9-cu bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən **qərara alır:**

Əli Hidayət oğlu Əsədovun Azərbaycan Respublikasının Baş Naziri vəzifəsinə təyin edilməsinə razılıq verilsin.

***O.ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

# İsveçrə Kantonlar Şurasının sədri Azərbaycana rəsmi səfərə gəlib



İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniye oktyabrın 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Bahar Muradova və digər rəsmi şəxslər qarşılayıblar.

Jan-Rene Furniye səfərin məqsədinin ölkələrimiz arasında münasibətlərin daha da inkişafı ilə bağlı müzakirələrin aparılması olduğunu deyib. O qeyd edib ki, İsveçrə ilə Azərbaycan arasında çoxillik tarixə malik əlaqələr qarşılıqlı inama və hörmətə əsaslanır. Əməkdaşlığımızı daha yüksək səviyyəyə çatdırmaq üçün çalışırıq. Regionun inkişafında Azərbaycanın rolu böyükdür. Azərbaycanın öz iqtisadiyyatını şaxələndirmək üçün göstərdiyi səyləri qiymətləndiririk. Azərbaycan və İsveçrə prezidentləri hər il Davosda görüşürlər. Yüksək səviyyəli qarşılıqlı səfərlər əlaqələrimizin, xüsusilə də parlamentlərarası münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətlidir. Bu səfər zamanı keçiriləcək görüşlərdə ölkələrimiz arasında əməkdaşlığın inkişaf perspektivləri ilə bağlı müzakirələr aparılacaq.

# Siyasətdə varislik: Azərbaycanın taleyini və simasını dəyişən 26 il

İyirmi altı il əvvəlki mənzərə: xaos və anarxiya, dərin siyasi-iqtisadi böhran, vətəndaş qarşıdurması, qeyri-sabitlik və ümidsizlik… Bugünümüzün mənzərəsi: dəqiq işləyən dövlət və idarəçilik mexanizmi, dinamik sosial-iqtisadi inkişaf, xalq-iqtidar birliyi, möhkəm sabitlik və sabaha inam...



## Ötən 26 ildə haradan haraya gəlib çıxdıq: hazırda dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur

Təbiətin fəsilləri - qışı, baharı var. Ölkələr, xalqlar da öz həyatında qışı və baharı xatırladan mərhələlərlə qarşılaşır. 1993-cü ilin isti yayında Azərbaycan öz tarixinin soyuq qışını yaşayırdı. Dövlət müstəqilliyini iki il əvvəl bərpa edən ölkədəki mənzərəni qeydlərimizin ilk cümləsində müxtəsər təsvir etməyə çalışmışıq. Təfərrüata gəlincə, zənnimcə, buna ehtiyac duyulmur. Sadəcə, həmin qorxulu günlərin şahidlərinin yaddaşlarını təzələməsi kifayət edər.

Azərbaycan xalqının bəxti onda gətirmişdi ki, onun Heydər Əliyev kimi böyük oğlu vardı. Həmin taleyüklü anlarda xalq müdriklik göstərərək öz dahi oğlunu siyasi hakimiyyətə dəvət etdi. Bununla da qışdan bahara keçid dövrü başladı, öləzimiş ümidlər göyərdi.

1993-cü il oktyabrın 3-də prezident seçilən, bundan bir həftə sonra Vətənə, xalqa və dövlətçiliyə sədaqət andı içərək öz səlahiyyətlərinin icrasına başlayan Ulu Öndər min bir əziyyətə qatlaşaraq çətin maneələri dəf edə bildi. Məğlubedilməz Heydər Əliyev öz dəmir iradəsi, qətiyyəti, müdrikliyi və fitri idarəetmə istedadı sayəsində Azərbaycanı təlatümlü dənizdən sakit limana gətirib çıxara bildi. Quruculuq işləri üçün vacib şərt olan sabitlik təmin edildi.

2003-cü il. Azərbaycan xalqı növbəti dəfə müdriklik göstərərək Ulu Öndərin layiqli varisi İlham Əliyevi öz lideri seçdi və bununla da ölkə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən bəyan etdi ki, Azərbaycan Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedəcək, çünki bu yolun alternativi yoxdur. Tanınmaz dərəcədə dəyişən, müasirləşən dünyaya öz brendlərini təqdim edən, təhlükəsizlik adası kimi tanınan Azərbaycan siyasi varisliyin təntənəsinə ən gözəl nümunə kimi göz qabağındadır. Son 26 ildə Azərbaycanın haradan haraya gəlib çıxdığının canlı şahidlərindən biri kimi bununla bağlı düşüncələrimi paylaşmaq, yaddaşları təzələmək istərdim. Söhbətim hər ayı, hər ili bir dastan olan Azərbaycan baharının ən çox diqqət çəkən anları haqqındadır.

## Heydər Əliyev Azərbaycana Günəş kimi doğdu

Ovaxtkı Azərbaycan sözün həm məcazi, həm də müstəqim mənasında qaranlıq dünyanı xatırladırdı. Axşamlar çox yerdə yalnız bir neçə saat işıq yanır, gecə vaxtı bütöv şəhərlər, kəndlər zülmətə qərq olurdu.

Qaz yox, su yox... Fabriklər, zavodlar işləmirdi. Dördrəqəmli inflyasiya əhalini bir günün içində var-yoxdan edirdi.

Dövlət xəzinəsi boşalmışdı. Bir tərəfdən də müharibə, separatçılıq, vətəndaş qarşıdurması.

Belə bir çətin, mürəkkəb vaxtda Heydər Əliyev Azərbaycana Günəş kimi doğdu. O, hakimiyyətə gəlişi ilə ölkəyə bir bahar havası, bir hərarət, bir işıq gətirdi.

Bəlkə də tale qisməti idi ki, Ulu Öndərin 1993-cü il iyunun 11-də Elmlər Akademiyasında bir qrup ziyalı və xarici ölkə səfirləri ilə keçirdiyi ilk görüşlərdə AZƏRTAC-ın müxbiri kimi mən də iştirak edirdim. Həmin vaxtdan başlayaraq Heydər Əliyevin keçirdiyi bütün görüş və tədbirləri, habelə xarici səfərlərini işıqlandırmaq mənə həvalə olundu. Jurnalistlik fəaliyyətimin həmin dövrü həyatımın ən unudulmaz illəri olmaqla yanaşı, bu dahi şəxsiyyətin əzəmətini, Vətəni və xalqı naminə gördüyü misilsiz işləri yaxından müşahidə etmək imkanı da yaratdı.

Yaxşı xatırlayıram, Ulu Öndər Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Prezident kimi ilk andiçmə mərasimində ölkədə yaranmış ağır vəziyyətdən ürəkağrısı ilə danışaraq deyirdi: “Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm”. Zaman bunun məhz belə olduğunu dönə-dönə təsdiqlədi.

Yazı üzərində işləyərkən Ulu Öndərin hələ Ali Sovetin Sədri olarkən Rusiya qəzetlərindən birinə verdiyi müsahibəyə rast gəldim. Heydər Əliyev arzularla bağlı sualı cavablandırarkən belə deyir: “Gənclik illərində əsas arzum arxitektor olmaq idi. Həmin ixtisas üzrə hətta bir az oxumuşdum da. Lakin sonradan bu arzumdan əl çəkməli oldum. Hərçənd o, qəlbimdə qalır. Yeri gəlmişkən, Azərbaycanın rəhbəri olarkən şəhərsalma sahəsində az iş görmədim”.

Müxbirin daha bir sualı: “Bəs indi əsas arzunuz nədir?”

Heydər Əliyevin cavabı: “Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa arzum yoxdur. Bütün varlığımı, bütün qüvvə və bacarığımı bu amala həsr etmişəm”.

Heydər Əliyev ixtisasca peşəkar arxitektor olmasa da, Azərbaycanı, milli dövlətçiliyimizi mahir memar kimi qurub-yaratdı. Xalqını firavanlıq və əmin-amanlığa qovuşdurmaq üçün əlindən gələni etdi. Onun siyasi varisi Prezident İlham Əliyev də eyni amalla yaşayır. Azərbaycanı Ulu Öndərin ideyalarının işığında daha parlaq gələcəyə doğru aparır.

## Xalq İlham Əliyevi öz lideri seçməklə siyasətdə varisliyi dəstəklədi

Azərbaycan xalqı 2003-cü ilin oktyabrında daha bir tarixi seçim etdi. Ulu Öndərin siyasi kursuna böyük inamdan qaynaqlanan bu seçim nəticəsində hakimiyyət sükanı arxasına seçicilərin 76,8 faizinin səsini qazanan, yeni əsrin yeni lideri olan Prezident İlham Əliyev keçdi.

Ovaxtdan ötən 16 il ən yeni tariximizə həyatın bütün sahələrində misilsiz irəliləyişlər, köklü islahatlar dövrü kimi daxil olub. Azərbaycan bu gün ictimai-siyasi sabitlik əmsalına, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə postsovet məkanında lider ölkədir. Bu dövr, eyni zamanda makroiqtisadi sabitlik, iqtisadi yüksəliş, sosial təminat dinamikası, dövlət idarəçiliyinin səmərəliliyi və bu kimi digər mühüm amillərlə də səciyyəvidir.

Prezident İlham Əliyevin 16 il əvvəl - 2003-cü ilin oktyabrında andiçmə mərasimindəki nitqinin tezislərini günümüzün real mənzərəsi ilə müqayisə edin. Bu müqayisə heç bir şərhsiz həyat həqiqətlərini, vədlə işin vəhdətini ortaya qoyur:

- Azərbaycan Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedəcək...
- Ulu Öndərin neft strategiyası davam etdiriləcək, qısa müddətdə ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik...
- Ölkəmizdə güclü ordu yaradılıb və bu proses davam edəcək...
- Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcək, müasir dövlətə çevriləcək...

İndi qayıdıb günümüzə nəzər salaq. Ölkəmizdə istisnasız olaraq bütün sahələr inkişaf edib və etməkdədir. Neft strategiyasının uğurla davam etdirilməsi sayəsində Azərbaycan zəngin və qüdrətli dövlətə çevrilib. Beynəlxalq reytinqlərə əsasən, Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları sırasında yer alır. Həyata keçirilən islahatların miqyasına gəlincə, Dünya Bankının hesabatında Azərbaycan dünyanın ən islahatçı 20 ölkəsi sırasına daxil edilib.

Ölkədə həyata keçirilən layihələrin, islahatların bir çoxunun təşəbbüskarı Prezidentimizin özüdür. Dünyanın maraq dairəsində olan “ASAN xidmət” onun ideyasıdır.

Xarizmatik, müasir düşüncəli lider olan, vaxtında və düzgün qərarlar qəbul edən Prezident İlham Əliyevin fəaliyyətində diqqət çəkən məqamlardan biri sözlə işin vəhdətidir və bunu təsdiqləyən yetərincə misal çəkmək olar.

Bir sözlə, son 16 il tariximizə möhtəşəm zəfər salnaməsi kimi yazılıb. Bu salnamədə Heydər Əliyev siyasətinin təntənəsi olan digər mühüm hadisələr - “Yeni əsrin müqaviləsi”nin imzalanması, Azərbaycanın dünyada söz və nüfuz sahibinə çevrilməsi, bir-birinin ardınca reallaşdırılan transmilli energetika və nəqliyyat layihələri, orbitə üç süni peykin buraxılması, söz və mətbuat azadlığının təmin olunması xüsusi yer tutur.

Sonuncu prezident seçkilərində İlham Əliyevin 86 faizdən çox dəstək qazanması xalqın öz liderinə böyük inamından xəbər verir.

## “Əsrin müqaviləsi”ndən “Yeni əsrin müqaviləsi”nə gedən yol

Ulu Öndər ölkə iqtisadiyyatının dönüş nöqtəsi olan “Əsrin müqaviləsi”nə, onun siyasi varisi İlham Əliyev isə Azərbaycana daha böyük dividendlər vəd edən “Yeni əsrin müqaviləsi”nə imza atdı. Bu iki tarixi hadisə arasında paralellər aparsaq, nəyi görə bilərik?

1994-cü ildə Azərbaycan çox riskli ölkə sayılırdı. Xarici investorları Xəzərdəki neft yataqlarına sərmayə yatırmağın hədər olmadığına inandırmaq lazım gəlirdi. Bu işdə Heydər Əliyev şəxsiyyətinə inam və güvənc həlledici rol oynadı. İqtisadi və sosial inkişafın təməli məhz “Əsrin müqaviləsi” ilə qoyuldu. Neft gəlirlərindən xalqın mənafeyi və ölkəmizin gələcəyi naminə səmərəli istifadə edilməsi məqsədilə Dövlət Neft Fondu yaradıldı. Fonda yığılan vəsait hesabına rahat və geniş yollar, körpülər salındı, qaçqın və məcburi köçkünlər üçün qəsəbələr tikildi, əhalinin rifahına yönəlmiş digər tədbirləri həyata keçirməyə imkan yarandı.

2017-ci il sentyabrın 14-də haqqında söhbət gedən müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasına dair kontrakt imzalandı. Artıq Azərbaycan 23 il əvvəlki Azərbaycan deyildi və sabit ölkə, etibarlı tərəfdaş kimi tanınırdı. Buna görə də müqavilə şərtlərini bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişmək mümkün oldu: SOCAR-ın “Azəri-Çıraq-Günəşli” yataqlarındakı iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı, üstəlik, tərəfdaş şirkətlər Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəmək barədə öhdəlik götürdülər.

Bu məqamda Ulu Öndər Heydər Əliyevin 26 il əvvəl andiçmə mərasimində söylədiyi bir fikir yada düşür. Ölkə iqtisadiyyatının tamamilə dağıldığından, əhalinin vəziyyətinin pisləşdiyindən danışan Heydər Əliyev müdrikcəsinə deyirdi: “Azərbaycanın coğrafi-siyasi mövqeyi, təbii sərvətləri respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir”.

O vaxt böyük uzaqgörənliklə müəyyənləşdirilən neft strategiyası Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində zamanın çağırışlarına uyğun yeni məzmunla zənginləşərək, xalqımızın rifahına xidmət etməkdədir.

## Dünya Azərbaycanı yenidən kəşf etdi

Bir qədər əvvəl qeyd etdiyim kimi, mənə 1993-cü ildən 2002-ci ilədək Prezident Heydər Əliyevi xarici səfərlərinin əksəriyyətində bir jurnalist olaraq müşayiət etmək xoşbəxtliyi nəsib olub. O, hər səfərə çıxanda özü ilə dünya xəritəsi götürürdü. Müxtəlif səviyyəli görüşləri zamanı xəritəni açır, Azərbaycanın, Dağlıq Qarabağın harada yerləşdiyini göstərir, səbirlə izahatlar verirdi. Etiraf edək ki, o vaxt dünya bizi yetərincə tanımırdı. Azərbaycanı tanıyanların çoxu da ölkəmizi Heydər Əliyevə görə tanıyırdı və bu, danılmaz həqiqətdir.

Sonra on bir xarici neft şirkətinin iştirakı ilə imzalanan “Əsrin müqaviləsi” dünyaya səs saldı. İllər ötdükcə Azərbaycanın səsi mötəbər beynəlxalq tribunalardan daha gur eşidilməyə başladı. Nəhayət, Prezident İlham Əliyevin milli maraqlara söykənən uğurlu xarici siyasəti nəticəsində dünya Azərbaycanı yenidən kəşf etdi, onun beynəlxalq arenada çəkisi və nüfuzu ildən-ilə artmağa başladı.

Bu prosesin təsdiqi olan çoxsaylı faktlardan yalnız ikisini xatırlamaq kifayət edər. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatlına üzv qəbul edildi. Oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda XVIII Zirvə Görüşü keçiriləcək və Azərbaycan 2019-2022-ci illərdə bu nüfuzlu beynəlxalq quruma sədrlik edəcək.

Prezidentimizin aramsız səylərinin, ardıcıl və çevik siyasi gedişlərinin nəticəsi olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində bizim haqlı mövqeyimizi dəstəkləyən dövlətlərin sayı getdikcə artmaqdadır. Erməni təbliğat maşınının bütün gücü ilə işləməsinə, erməni lobbisinin hökumətlərə, parlamentlərə güclü təsir imkanlarına baxmayaraq, dünyanın münaqişəyə baxışı, bununla bağlı mövqeyi əhəmiyyətli dərəcədə dəyişdi. Bu gün zaman artıq bizim xeyrimizə işləyir. Bu gün dünya İlham Əliyevin Rusiyanın Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun illik iclasının sessiyasında işğalçı Ermənistanın rəhbərinin ünvanına səsləndirdiyi sərt bəyanatdan, Paşinyanın sərsəmləmələrinə verdiyi tutarlı cavabından danışır: “Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Prezident İlham Əliyevin şəxsində xarici iş adamlarının, investorların Azərbaycana artan marağına bu il keçirilən Davos İqtisadi Forumunda bir daha şahid olduq: bir çox qlobal nüfuza malik şirkətlərin rəhbərləri dövlət başçısı ilə görüşə can atır, ölkəmiz üçün sərfəli əməkdaşlıq təklifləri irəli sürürdülər.

Dövlət başçısının diplomatik məharətinə “Şərqin şəfəqi” mövzusuna həsr olunmuş “Valday” Diskussiya Klubunun illik iclasındakı məzmunlu çıxışı ən yeni misal ola bilər. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan öz geosiyasi mövqeyindən maksimum bəhrələnir və bu, beynəlxalq münasibətlər sahəsində dərin biliyə malik Prezidentimizin məqsədyönlü siyasəti, titanik fəaliyyəti nəticəsində mümkün olub.

## Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasına necə gəlib çıxdı

Dövlət müstəqilliyinin bərpasından sonrakı iki ildə müharibə vəziyyətində olan Azərbaycanda ordu quruculuğu sahəsində demək olar, heç bir iş görülməmişdi. Ulu Öndər hakimiyyətə qayıdarkən ölkədə vahid komandanlığa tabe olan nizami ordudan əsər-əlamət yox idi. Ayrı-ayrı silahlı birləşmələr ölkəni düşmənin təcavüzündən qoruya bilmir, torpaqlarımız, bütöv rayonlar bir-bir əldən gedirdi.

Ulu Öndərin 1993-cü ilin oktyabrında, Prezident İlham Əliyevin bundan on il sonra andiçmə mərasimindəki çıxışlarından iki tezisə diqqət yetirək.

Heydər Əliyev: “Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə çox az iş görülüb. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir”.

İlham Əliyev: “Ulu Öndər Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görüb. Ölkəmizdə güclü ordu yaradılıb və bu proses davam edəcək. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaq. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır”.

Siyasətdə varislik bu mühüm hədəfə də çatmağa imkan verdi, vədlər əməli işlərlə tamamlandı. 2013-cü ildən bəri hərbi xərclər 15 dəfə artıb. Ordu ən müasir silahlar və texnika ilə təchiz edilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə son illərdə 20-dən çox hərbi zavod yaradılıb. Bu müəssisələrdə 1200 adda hərbi təyinatlı məhsul istehsal olunur. Bu da nəticə: Azərbaycan Ordusu hazırda dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Dövlət başçısının dediyi kimi, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir.

Biz Azərbaycan Ordusunun istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olduğunu 2016-cı ilin aprelində və 2017-ci ilin mayında gördük. Ordumuzun apardığı uğurlu döyüş əməliyyatları nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının 2 min hektar, Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi işğaldan azad olundu. Azərbaycan Ordusunun gücünü düşmən də, dünya da gördü.

## Dinamik iqtisadi inkişaf, transmilli layihələr və inqilabi islahatlar

Statistika göstərir ki, son 16 ildə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Sirr deyil ki, infrastrukturun yenilənməsi, əhalinin rifah halı, ordu quruculuğu, ilk növbədə iqtisadi gücə bağlıdır.

Azərbaycanın iqtisadi inkişafının təməli Ulu Öndərin gərgin səylərlə nail olduğu “Əsrin müqaviləsi” ilə qoyulub. Bu barədə bir qədər əvvəl söhbət açdığımız üçün bircə faktı qeyd etməklə kifayətlənirik: İlham Əliyev 2003-cü ildə Prezident seçiləndə Dövlət Neft Fonduna cəmi 800 milyon dollar yığılmışdı. Bu gün isə fondun aktivləri 43 milyard dollara yaxınlaşır. Azərbaycan 2001-ci ildən indiyədək “Azəri-Çıraq-Günəşli” neft-qaz yataqlar blokunun işlənilməsi layihəsinin hesabına ümumilikdə 143 milyard dollardan çox gəlir əldə edib.

Əlbəttə, söhbət təkcə pulda deyil, neft gəlirlərindən məqsədyönlü və səmərəli istifadə olunmasındadır. Neftlə zəngin bəzi ölkələr var ki, səfalət içərisində yaşayır.

Ölkəmizə gəlincə, müasir neft strategiyasının ən mühüm üstünlüyü əldə edilən gəlirin iqtisadiyyatın şaxələndirilməsinə və sosial tərəqqiyə yönəldilməsi, neft kapitalının insan kapitalına çevrilməsidir. Biz bu müdrik siyasətin bəhrəsini respublikamızın hər bir guşəsində, həyatın hər bir sahəsində - Azərbaycanın yeniləşən simasında görürük. Bunu hər bir vətəndaş öz gündəlik həyatında görür və hiss edir.

İnsanların işini asanlaşdıran, bürokratiyanı və korrupsiyanı aradan qaldırmağa hesablanan “ASAN xidmət” mərkəzlərinə müraciətlərin sayı 33 milyonu ötüb. Təkcə bu il minimum əməkhaqqı iki dəfəyə yaxın, minimum pensiya isə 70 faiz artıb. Prezident İlham Əliyevin təşəbbüsü olan inqilabi sosial islahatlar paketi 4 milyondan çox insanın büdcəsinə müsbət təsir göstərib.

Ölkəmizdə qazlaşdırma səviyyəsi 95 faizə çatıb (bu, dünya praktikasında nadir göstəricidir). Vaxtilə özünü elektrik enerjisi ilə təmin edə bilməyən Azərbaycan bu gün region ölkələrinə enerji ixrac edir.

On beş min kilometr uzunluğunda yol, 440-dan çox körpü, 4 yeni metro stansiyası, Bakının Ələt qəsəbəsində ən böyük beynəlxalq dəniz ticarət limanı, yeni tikilmiş və yenidən qurulmuş 3200-dən çox məktəb binası, 650-yə yaxın tibb müəssisəsi - bu, son 16 ildəki infrastruktur layihələrinin tam olmayan siyahısıdır.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə reallaşdırılan transmilli layihələr dünyanın energetika və nəqliyyat xəritəsini dəyişdirə biləcək miqyasa malikdir. Ulu Öndər Heydər Əliyev tərəfindən 2002-ci ildə təməli qoyulmuş Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərindən başlayan bu layihələrə Bakı-Tbilisi-Ərzurum qaz kəməri, “Cənub qaz dəhlizi”, Bakı-Tbilisi-Qars dəmir yolu əlavə olunub. Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin Azərbaycandan keçən hissələrində işlər demək olar yekunlaşıb.

Nəhayət, daha bir önəmli məqam: İlham Əliyev Azərbaycanı sayı məhdud olan kosmik ölkələr sırasına daxil edib. Hazırda orbitdə üç peykimiz var, halbuki bir vaxt bunu yalnız arzulaya bilərdik.

Göründüyü kimi, siyasətdə varislik əfsanə və xəyalları reallığa çevirməkdədir.

## Fikir plüralizmi, söz və mətbuat azadlığı qarşısında yaşıl işıq

Ulu Öndər hələ böhranlı günlərdə - 1993-cü ilin oktyabrında Azərbaycanın demokratiya yolu ilə gedəcəyini bəyan edərək deyirdi: “Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik”.

Biz mətbuat işçiləri Ulu Öndərin, eləcə də Prezident İlham Əliyevin əsas demokratik prinsiplərindən olan söz və mətbuat azadlığının, fikir plüralizminin təmin edilməsi istiqamətində göstərdikləri səylərin şahidiyik.

Bu gün ölkədə KİV-in - informasiya agentliklərinin, qəzet və jurnalların, televiziya və radioların ümumi sayı 5 mini, internet portallarının sayı isə 20 mini ötür. Əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir. Azərbaycanda 70 ümumrespublika, peyk, regional, kabel, internet televiziyası fəaliyyət göstərir.

Ölkə mətbuatında özünəməxsus yeri və rolu olan AZƏRTAC da Ulu Öndərin və onun siyasi varisi İlham Əliyevin diqqətini, qayğısını həmişə hiss edib. İndi AZƏRTAC-ın xarici ölkələrdə 22 müxbir məntəqəsi fəaliyyət göstərir. AZƏRTAC hər gün 8 dildə 600-650 informasiya hazırlayıb öz kanalları ilə yayır. Dünyanın 50-yə yaxın informasiya agentliyi ilə rəsmi əməkdaşlıq müqaviləsi bağlamışıq. Üzvü olduğumuz regional və beynəlxalq qurumların elektron resurslarında, tərəfdaşlıq etdiyimiz xarici agentliklərdə və media qurumlarında AZƏRTAC-ın hər il 15 mindən çox xəbəri, fotosu və videosu yer alır.

İndi bu uğurlar fonunda Ümummilli Liderin söhbət əsnasında bizə verdiyi bir tövsiyəni yaxşı xatırlayıram: “Çalışın, dünya informasiya məkanına çıxın. Beynəlxalq media təşkilatlarına üzv olun, bu, Azərbaycan həqiqətlərinin dünyaya yayılmasına yaxşı imkanlar yaradacaq”.

Biz vaxtilə beynəlxalq media qurumlarına üzv olmaq barədə düşünürdük. Amma vaxt gəldi, AZƏRTAC onların rəhbər orqanlarında təmsil olunmağa başladı. 2016-cı ildə möhtərəm Prezident İlham Əliyevin himayəsi, birinci xanım Mehriban Əliyevanın dəstəyi, Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakı eyni vaxtda iki mötəbər beynəlxalq təşkilatın əsas forumlarına - Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına yüksək səviyyədə evsahibliyi etdi, AZƏRTAC hər iki qurumun rəhbəri seçildi. Bununla da Azərbaycanın adı dünya mətbuat tarixinə yazıldı...

❖ ❖ ❖

Siyasətdə varisliyin təntənəsini, Azərbaycanın inkişafında oynadığı misilsiz rolu təsdiqləyən misallar, hadisələr saysız-hesabsızdır. Mən onların yalnız bir qismini xatırlatdım. Bu möhtəşəm zəfər yolunu şərtləndirən daha bir mühüm amil var. Dövlət başçısı üçün vacib sayılan siyasi iradəni, qətiyyəti, müdrikliyi, anında və düzgün qərarlar qəbul etmək bacarığını biz vaxtilə Heydər Əliyevin, bu gün isə İlham Əliyevin simasında görürük. Xalq öz liderinə inanır, onun arxasınca gedir, onu dəstəkləyir. Uğurların qarantı olan xalq-iqtidar birliyi Azərbaycanı bundan sonra da zirvədən-zirvəyə, zəfərdən-zəfərə aparacaq.

**Aslan ASLANOV,**
**AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti**

## RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada Linqvistika Klubu yaradılıb

Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada Linqvistika Klubu yaradılıb.

AZƏRTAC xəbər verir ki, bu günlərdə RAGB-nin ofisində Linqvistika Klubunun “Welcome day” tədbiri keçirilib. Layihələrin əlaqələndiricisi Ramin Rəcəbov tədbirə toplaşanların qarşısında çıxış edərək bildirib ki, RAGB-də xarici dil kursları 2016-cı ildən fəaliyyət göstərir. Yeni tədris ilindən etibarən RAGB xarici dil kurslarını Linqvistika Klubu şəklində birləşdirməyi qərara alıb. Bu tədris ilində gənclərin Azərbaycan, ingilis, ispan, italyan və alman dillərini öyrənmək imkanı olacaq.

R.Rəcəbov qeyd edib ki, Linqvistika Klubunun yaradılması RAGB-nin sədri Leyla Əliyevanın dəstəyi sayəsində mümkün olub. O deyib: “Leyla Əliyeva RAGB-nin sonuncu forumunda gənclərə müraciətlə qeyd etmişdi ki, RAGB-də gənclər öz biliklərini dərinləşdirmək və yeni biliklər əldə etmək imkanına malikdir. RAGB sədri deyib: “Bizim ofisimizdə xarici dilləri öyrənmək olar və ümidvaram ki, tezliklə Azərbaycan dili kursları da açılacaq”. Dillərin öyrənilməsinə böyük maraq yaranıb, dil kurslarına 200-dən çox adam yazılıb. Biz arzu edən hər kəs üçün belə imkan yaratmağa çalışacağıq”.

Linqvistika Klubunun rəhbəri Əbülfəz Şahbazovun sözlərinə görə, RAGB-nin sayəsində bizim gənclər özlərini, öz mədəniyyətini, tarixini və bütövlükdə ölkəmizi layiqincə təmsil etmək imkanı qazanıb: “Rusiyanın Azərbaycanlı Gənclər Birliyi gənclərin öz potensialını reallaşdırmasına imkan verir”.

Azərbaycan, ingilis, ispan, italyan və alman dillərinin öyrənilməsi üzrə məşğələlər şənbə və bazar günlərində RAGB-nin ofisində keçiriləcək.

## Rusiya Prezidenti “Azərbaycan” nəşriyyatının baş direktorunu “Puşkin” medalı ilə təltif edib

Rusiya Prezidenti Vladimir Putin “Azərbaycan” nəşriyyatının baş direktoru Ağabəy Əsgərovun “Puşkin” medalı ilə təltif olunması haqqında fərman imzalayıb.

AZƏRTAC xəbər verir ki, Ağabəy Əsgərov Rusiya və Azərbaycan xalqlarının mədəniyyətlərinin yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi işinə töhfəsinə görə mükafatlandırılıb.

## Bölgələrdə vətəndaşların qəbulu keçirilib

Oktyabrın 8-də Ədliyyə naziri Fikrət Məmmədov Füzuli rayonunun Horadiz şəhərində Füzuli, Beyləqan və İmişli rayonlarında yaşayan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qəbul qaydalarına uyğun olaraq vətəndaşların növbəti qəbulunu həyata keçirib.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, qəbulda müraciətlər əsasən işlə təminedilmə ilə bağlı olub. Həmçinin müxtəlif ideya və təkliflər dinlənilib.

Müvafiq müraciətlər cavablandırılıb, həll edilməsi araşdırma tələb edən məsələlər ilə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

AZƏRTAC

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Möhtərəm cənab Prezident!

Azərbaycanın hər yerində olduğu kimi, bizim Quba rayonunun Xanəgah kəndi də Sizin böyük qayğınız sayəsində öz görkəmini gündən-günə dəyişir, abadlaşır. Sizin bir neçə sərəncamınızla Xanəgah kəndinə, o cümlədən ətrafdakı Rustov, Növdün, Şuduq, Bağçalı və başqa kəndlərə onların tarixində ilk dəfə olaraq asfalt yollar çəkilib, dağ çaylarının üzərində gözəl körpülər salınıb.

Hörmətli cənab Prezident, çox sağ olun ki, Sizin tapşırığınızla rəhbər işçilər indi əhali ilə, sadə insanlarla daha yaxından əlaqə saxlayır, onlarla görüşüb problemlərini öyrənir və məsələləri yerində həll etməyə çalışırlar. Bu qəbullar Sizin xalqımıza və vətəndaşlarımıza böyük qayğınızın nəticəsidir. Neçə vaxt idi ki, Xanəgah kəndinin ortasından keçən çayın üzərində körpünün olmaması bizi çox narahat edirdi. Bu ilin iyul ayında kənd sakinlərinin xahişi nəzərə alınaraq Sizin tapşırığınızla çox qısa bir vaxtda Çağacıq çayı üzərində Xanəgah kəndinin hər iki tərəfini birləşdirən gözəl bir körpü tikilərək istifadəyə verildi. Kənd qəbiristanlığına gedən yol tam asfaltlandı və səliqəyə salındı.

Sizin dediyiniz kimi, doğrudan da yol olan yerdə inkişaf da var. Kəndimizə də yol çəkildikdən sonra yeni xidmət obyektləri və istirahət yerləri salınır, hər sahədə canlanma hiss olunur. Bu, bizi çox sevindirir.

Möhtərəm cənab Prezident, çox sağ olun ki, Siz hər zaman xalqın yanındasınız və bizim bütün məsələlərə belə diqqətlə yanaşırsınız. Bütün bunlara görə biz - Xanəgah kəndinin sakinləri Sizə dərin minnətdarlığımızı bildirir, hər bir addımınızı ürəkdən dəstəkləyir, doğma Vətənimizin daha gözəl gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayırıq. Ümid edirik ki, nə vaxtsa yolunuz bizim kəndlərə də düşəcək və biz bundan çox xoşbəxt olacağıq.

Xanəgah kəndinin sakinləri adından dərin hörmətlə,

*Absəlimov Saleh, Qurbanov Gəray, Əsədullayev Nəzər, Kazımov Aydın, Cəbrayılov Talıb, Baxışov Cəmil, Orucəliyev Məzahir, Həsənov Mövsüm, Abdulrəhimov İlham, Qurbanov Əzizağa, Pirməmmədov Qadir və başqaları (cəmi 64 nəfər)*
*Azərbaycan Respublikası, Quba rayonu, Xanəgah kəndi*

### Neft Daşları - 70

# XX əsrdən XXI əsrə atılmış körpü



**Yerin təkindəki, dənizin dibindəki “qara qızıl” və mavi yanacaqla zəngin olan ölkəmiz dünyanın neft-qaz tarixində çoxsaylı ilklərə imza atıb. 70 il əvvəl isə Xəzərin açıq qoynunda ilk neft quyusunun fontan vurması ilə dünya dəniz neftinin erası da Azərbaycandan başlanıb.**

Əvvəllər Neft Daşları “Qara daşlar” adlanıb. Çünki neft kəşfiyyatçılarının istinad nöqtəsi dənizin içindən çıxıb suyun üstündə baş qaldıran qara daşlar olub. 1949-cu ilin 7 noyabr günü Neft Daşlarının “doğum” tarixi kimi qeyd olunsa da, burada axtarış-kəşfiyyat işləri xeyli əvvəl aparılıb. Ərazidə neft hasilatına başlanandan sonrakı illərdə isə estakada və meydançaların tikintisi vüsət alıb. Onların xeyli hissəsi bugünə kimi Xəzərin şahə qalxan dalğalarına sinə gərərək dözüb dayanır. Burada bir çox hidrotexniki qurğular, kommunikasiya xətləri, istehsal və yaşayış təyinatlı obyektlər də inşa edilib.

Bir sözlə, ötən onilliklər ərzində Xəzərin qoynunda dünyanı heyrətə gətirən nadir neft-qaz kompleksi və yaşayış şəhəri yaradılıb.

Neft Daşlarını “Möcüzələr adası” adlandırıblar. Əlbəttə, insan əməyinin, ağlının və zəkasının yaratdıqlarından, təbiətin ona bəxş etdiyi bu maddi sərvətin - “qara qızıl”ın zənginliyindən vəcdə gələrək belə deyiblər. Əslində, Neft Daşları reallıqdır, möcüzəyə bənzəsə də, həqiqətdir. “Neft Daşları” ilk növbədə 70 ildir istismar olunan və ehtiyatları hələ də tükənməyən bir xəzinə - karbohidrogen yatağıdır.

“Neft Daşları” böyük bir müəssisə - Neft və Qazçıxarma İdarəsidir.

Nəhayət, Neft Daşları dünyada bənzəri olmayan bir şəhərdir. Dayaqları dənizin dibində qərar tutan polad dirəklər üstündə salınmış bir şəhər... Ümummilli Lider Heydər Əliyev Neft Daşlarını XX əsrdən XXİ əsrə atılmış körpü adlandırıb.

“Neft Daşlarında işləyən hər bir kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz”. Bunu da dəniz neftçilərinin əməyini yüksək qiymətləndirən, Neft Daşlarının inkişafına həmişə qayğı ilə yanaşan Ulu Öndər deyib.

Dəniz neftçilərinin qəhrəmanlıq salnaməsi davam edir. Onlar köhnə yataqda hasilatı sabit saxlamağa və artırmağa nail olurlar. Bir neçə il əvvəl “Neft Daşları” hətta ondan qabaqkı onilliyin rekordunu təzələyə bilmişdi.

İllər keçir, Xəzərdə yeni yataqlar aşkar olunur, texnika və texnologiyanın ən son nailiyyətləri ilə tikilən platformalar ucalır. Ancaq Neft Daşlarının dəyəri azalmır, ona göstərilən qayğı artır.

Prezident İlham Əliyev “Möcüzələr adası”nın böyük əhəmiyyətini dəfələrlə vurğulayıb. Neft Daşları əməkçilərinin yaxşı işləmələri və istirahət etmələri, təhlükəsizliyi üçün yaradılan şərait də bu qayğıdan qaynaqlanır.

Dövlət başçısı Azərbaycanın neft-qaz sənayesində qazanılan uğurların əsasını Neft Daşları təşkil etdiyini bildirərək deyib: “Əgər vaxtilə Neft Daşlarında Azərbaycan neftçiləri ağır, çətin şəraitdə böyük qəhrəmanlıq göstərərək işlərə başlamasaydılar, ondan sonrakı layihələr ya gecikə, ya da ümumiyyətlə, həll olunmamış qala bilərdi. Bu gün Azərbaycanın neft-qaz potensialının əksəriyyətini təşkil edən “Azəri-Çıraq-Günəşli” yataqlarının kəşfiyyatı və işlənməsi məhz burada qoyulan təməl üzərində reallaşır”.

“Neft Daşları-70” rubrikası ilə verilən növbəti yazılarda bu təməli qoyanlardan, dənizdə əfsanəvi şəhər quranlardan, bir sözlə, “Möcüzələr adası”nın dünənindən və bugünündən söhbət açılacaq.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Qeyri-neft məhsullarının ixracı getdikcə artır

## Bu, müəyyən edilmiş hədəflərə nail olunduğunun daha bir göstəricisidir

*Əvvəli 1-ci səh.*



Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır... Mən əminəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatı istehsalı böyük dərəcədə artacaq, o cümlədən ixrac artacaq, daxili tələbat daha çox yerli məhsullar hesabına təmin ediləcəkdir. Özümüzü təminetmə əmsalı artacaq, qeyd etdiyim kimi, ixrac imkanlarımız genişləndiriləcək, biz yeni bazarlara çıxış əldə edəcəyik”.

Elə cari ilin 8 ayı ərzində meyvə-tərəvəz ixracının artaraq 361,7, pambıq lifi ixracının 86,2, alkoqollu və alkoqolsuz içkilərin ixracının 18,9, pambıq ipliyi ixracının 20,2, şəkər ixracının 20,1 milyon dollara çatması da fermerlərə dövlət dəstəyi və aqrar sektorda aparılan islahatlar nəticəsində mümkün olub.

Həmin dövrdə qeyri-neft sənayesində də məhsul ixracı artmaqda davam edib. Plastik kütlə və ondan hazırlanan məmulatların ixracı 136,8, alüminium və ondan hazırlanan məmulatların ixracı 81,3, kimya sənaye məhsullarının ixracı 68,5, elektrik enerjisinin ixracı 58,4, qara metallar və ondan hazırlanan məmulatların ixracı 41,4 milyon dollar təşkil edib. Ötən ilin yanvar-avqust ayları ilə müqayisədə alkoqollu və alkoqolsuz içkilərin ixracı 2 dəfə, kimya sənayesi məhsullarının ixracı 68,7, plastik kütlə və ondan hazırlanan məmulatların ixracı 51,3, pambıq lifinin ixracı 49,4, pambıq ipliyinin ixracı 40,3, şəkər ixracı 15,5, meyvə-tərəvəz ixracı 14,5 faiz artıb.

2019-cu ilin avqust ayında isə qeyri-neft sektoru üzrə ixrac 144,4 milyon ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin avqust ayı ilə müqayisədə 2019-cu ilin avqust ayında qeyri-neft sektoru üzrə ixrac 19 milyon ABŞ dolları və ya 15 faiz artıb. Bu ilin avqust ayında qeyri neft-qaz məhsullarından ən çox mal Rusiyaya (31,2 milyon ABŞ dolları), Türkiyəyə (27,4 milyon ABŞ dolları), İsveçrəyə (23,2 milyon ABŞ dolları), Gürcüstana (10,3 milyon ABŞ dolları) və Çinə (6,4 milyon ABŞ dolları) ixrac edilib.

2019-cu ilin avqust ayında qeyri-neft sektoru üzrə ixracda qızılın (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) 22,7 milyon dolları birinci, emal olunmamış, aşqarlanmamış alüminiumun 11,6 milyon dolları ikinci, metanolun 9,6 milyon dolları üçüncü olub.

Azərbaycan dünyaya təkcə kənd təsərrüfatı məhsullarını ixrac etmir. Eyni zamanda ölkəmiz dünyaya yüksək texnologiyalara əsaslanan xidmətlər də ixrac edir. Belə ki, cari ilin yanvar-avqust aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın 23 ölkəsinə 28 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 89 faizini təşkil edib. Bu ilin avqust ayında isə “Azərkosmos” ASC dünyanın 18 ölkəsinə 2,5 milyon dollar dəyərində xidmət ixracı göstərib. “Azərkosmos” ASC-nin cari ilin yanvar-avqust aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr ABŞ, Fransa, Birləşmiş Krallıq, Malayziya, BƏƏ-dir.

“İxrac icmalı”nda həmçinin bu ilin yanvar-avqust aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Həmin icmalda göstərilir ki, cari ilin 8 ayında Azexport.az portalına 399,3 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 8 ayı ərzində ixrac sifarişlərinin 8,8 faiz artması deməkdir. 2019-cu ilin avqust ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 52,7 milyon dollar təşkil edib ki, bu da ötən ilin avqust ayı ilə müqayisədə 2,3 faiz çoxdur. Həmçinin həmin dövrdə portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya 11,4, Türkiyə 5,8, ABŞ 5,8, Hindistan 5,5 və İngiltərə 5,2 faizlə qərarlaşıb.

Bu ilin avqust ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq məhsulları, tütün, şərab, toyuq əti, yumurta, soğan, meyvə şirəsi, qənnadı məhsulları, tikinti materialı, xiyar, çay, qurudulmuş meyvə, zəfəran, bal, meyvə tamlı süd, qablaşdırılmış mineral su, mühərrik yağı, mebel dəsti, gül və s. mallara daxil olub.

“İxrac icmalı”nda göstərilib ki, bu ilin sentyabr ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 8,2 milyon dollar olub. 2019-cu ilin yanvar-sentyabr ayları ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən yüzlərlə sahibkara ixracla bağlı müvafiq sertifikatlar verilib və bunun sayəsində 99,9 milyon dollar dəyərində qeyri-neft ixracı həyata keçirilib.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***



## Yeni üzüm emalı müəssisəsi ilk məhsulu qəbul edib

Tovuz rayonunda yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi, xarici valyuta gətirəcək istehsal sahələrinin yaradılması istiqamətində işlər uğurla davam etdirilir. Elə bu günlərdə rayonun Aşağı Quşçu kəndində istifadəyə verilən yeni üzüm emalı müəssisəsi buna misal ola bilər.

Respublikamızda sahibkarlığın inkişafına dövlət qayğısından bəhrələnən “A+Co” MMC-nin istifadəyə verdiyi müəssisə rayonda üzümçülüklə məşğul olan fermerlərin işini daha da asanlaşdırmış, plantasiyalarda yetişdirilən üzümün satışında olan problemlər aradan qaldırılmışdır. Belə ki, təsərrüfat sahibləri əvvəllər yetişdirilən məhsulun bir hissəsini bazarda sata bilsələr də, texniki sort üzümlərin satışında çətinlik çəkirdilər.

Müəssisənin üzüm qəbulu xətti qısa müddətdir istifadəyə verilib. Rayonun üzümçülüklə məşğul olan fermerləri və eyni zamanda Gəncə-Qazax iqtisadi regionuna daxil olan ətraf bölgələrin sakinləri indi yetişdirdikləri texniki üzüm sortlarını yeni zavodun qəbul məntəqəsinə gətirib, təhvil verib dəyərini yerindəcə alırlar. Sahibkarlar da işin belə təşkilindən olduqca razıdırlar.

Müəssisə mövsüm ərzində 3 min ton məhsul qəbul etmək gücündədir. Burada İtaliya, Fransa və digər xarici ölkələrdən alınmış texnoloji avadanlıqlar quraşdırılmışdır. Hazırda məhsul qəbulu ilə yanaşı, şərab məhsullarının istehsalı sexlərində tikinti-quraşdırma işləri davam etdirilir. Müəssisə tam gücü ilə işə düşdükdən sonra burada alkoqolsuz içkilərin istehsalı da mümkün olacaqdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***



Aida İmanquliyeva - 80

# Şərqşünaslıq elmimizin dünya şöhrətli nümayəndəsi

Əvvəli 1-ci səh.



Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1957-ci ildə Bakı şəhərindəki 132 saylı orta məktəbi qızıl medalla bitirmişdir. Həmin ildə Azərbaycan Dövlət Universitetinin (indi BDU) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə daxil olmuşdur. 1962-ci ildə universiteti bitirəndən sonra həmin universitetin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuş, daha sonra keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil almışdır. 1966-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda məhsuldar elmi fəaliyyətinə başlamışdır.

Aida xanım elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçmiş, zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinədək ucalmışdır.

1989-cu ildə Aida xanım Tbilisi şəhərində müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmiş, filologiya elmləri doktoru elmi dərəcəsi və az sonra bu ixtisas üzrə professor adı almışdır.

Üç monoqrafiyanın ("Mixail Nüaymə və "Qələmlər birliyi", M., 1975; "Cübran Xəlil Cübran", B., 1975; "Yeni ərəb ədəbiyyatı korifeyləri", B., 1991) və 70-dən çox elmi məqalənin müəllifi olan Aida xanım Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru olmuşdur. Müasir Şərq ədəbiyyatının bir sıra əsərləri də Aida xanımın tərcüməsində işıq üzü görmüşdür. O həmçinin Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika xarici ölkə ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasına sədrlik etmişdir.

Görkəmli alim Azərbaycan şərqşünaslıq elmini dəfələrlə respublika hüdudlarından uzaqlarda (Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle və s.) ləyaqətlə təmsil etmişdir. Aida xanımın elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı ərəbşünas kadrların hazırlanması daim diqqət mərkəzində saxlanmışdır. Təsadüfi deyil ki, institutun ərəb filologiyası şöbəsinə başçılıq etdiyi qısa müddət ərzində onun bilavasitə səyi ilə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilmişdir.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

O, uzun illər pedaqoji fəaliyyətlə də səmərəli məşğul olmuş, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirə oxumuşdur.

Dünya şöhrətli şərqşünaslarla bir sırada adı çəkilən Aida İmanquliyevanın tədqiqat sahəsi kimi ərəb filologiyası, konkret olaraq ərəb məhcər ədəbiyyatı qeyd edilir. Lakin Aida xanımın araşdırdığı məsələlər şərqşünaslığın və filoloji düşüncənin hüdudlarına sığmır. Şərq-Qərb problematikasının bədii-romantik tərənnümü Aida xanımın yaradıcılığında müstəqil fəlsəfi problem kimi qoyulur və Şərq ilə Qərb düşüncələrinin vəhdət zərurəti elmi-fəlsəfi arqumentlərlə sübuta yetirilir. Belə ki, Aida xanım tədqiq etdiyi görkəmli şəxslərin xidmətlərini göstərməklə kifayətlənməyərək, özü də Şərq-Qərb probleminin həlli istiqamətində olduqca dəyərli fikirlər irəli sürmüşdür. Onun tədqiqatları nəticəsində bütün dövrlər üçün aktuallığını saxlayan mütləq bir həqiqət müəyyənləşmişdir: Şərqin bir çox ölkələrinin müasir inkişafı bir gerçəkliyi ortaya qoyur - Qərbin mədəni dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsin. Alimin çoxsaylı elmi əsərlərində Qərb-Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur. Bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatının həmin aspektdə öyrənilməsi üçün çox mühüm zəmin yaradır və metodoloji əhəmiyyət daşıyır.

Sivilizasiyalararası dialoq ideyasının siyasi, iqtisadi və kulturoloji müstəvilərdə üzə çıxması, əslində, elmi-fəlsəfi və ədəbi-bədii yaradıcılıqda aparılan axtarışların nəticəsi idi. Bu problem bədii yaradıcılıq müstəvisində bir sıra yazıçı-mütəfəkkirlər tərəfindən hələ XIX əsrin sonlarında qaldırılmışdı. Aida İmanquliyeva məhz həmin ədəbi-bədii proseslərin XX əsrin axırlarında kəsb etdiyi yeni ictimai-siyasi mənanın aktuallığını nəzərə alaraq bu problemi Azərbaycan şərqşünaslıq məktəbinin mühüm istiqamətlərindən birinə çevirdi.

Qeyd etdiyimiz kimi, Aida xanım İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Bununla belə onun çoxsaylı elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı idi.

XIX əsrin sonlarında bir çox ərəb ölkələrinin, ilk növbədə Livanın ictimai-siyasi və iqtisadi həyatında problemlər insanları vətəni tərk edib kütləvi şəkildə ABŞ-a üz tutmağa məcbur etdi. Livan yaradıcı ziyalılarının ABŞ-a, xüsusilə də Nyu York şəhərinə mühacirəti ilə ərəb məhcər ədəbiyyatının təşəkkülü başlandı, bu da son nəticədə yeni ərəb ədəbiyyatının formalaşmasında əhəmiyyətli rol oynayan xüsusi və özünəməxsus "Suriya-Amerika məktəbi"nə çevrildi. Ərəb ədəbiyyatını fəal şəkildə əcnəbi ədəbiyyatların təcrübəsinə qoşmaq yolu ilə onu yeniləşdirmək missiyası "Suriya-Amerika məktəbi"nin aparıcı nümayəndələrinin üzərinə düşdü.

Alimin çoxsaylı və gərgin araşdırmaları sayəsində aşağıdakı nəticələr əldə edilmişdir: ərəb məhcər ədəbiyyatı nümayəndələrinin ədəbi yaradıcılığının əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərlərini yenilik ruhunda əxz etmiş, yeni formada ifadə etmiş, onların nailiyyətlərini milli ənənələrlə sintezdə təcəssüm etdirmişlər. "Suriya-Amerika məktəbi"nin ən istedadlı sənətkarları əcnəbi ədəbiyyatlardan məhz ərəb ölkələrinin ən mühüm ictimai inkişaf tələblərinə cavab verən nailiyyətləri mənimsəmişlər. Bu yazıçıların fəaliyyəti sayəsində XX əsrin əvvəllərində ərəb ədəbiyyatı regional birliklər çərçivəsində qapanıb qalmaq ənənəsini dəf edə və dünya ədəbi prosesinə fəal şəkildə qoşula bilmişdir. "Suriya-Amerika məktəbi" yazıçılarının yaradıcılığı qeyri-adi bir sintezin nümunəsi oldu - onun əlaqə dairəsinə eyni vaxtda üç ənənə: "göl məktəbi", Amerika transsendentalizmi və rus ədəbiyyatının tənqidi realizmi daxil oldu. Bunları təhlil edən tədqiqatçı yazıb: "Ədəbi faktların təsviri, müqayisəli təhlili və öyrənilməsi yeni ərəb ədəbiyyatının formalaşmasına dair təsəvvürləri nəinki genişləndirdi, həm də Şərqin yeni ədəbiyyatının tarixi inkişafının mürəkkəb və ziddiyyətli formalarının tipoloji baxımdan həqiqi mənzərəsini canlandırdı. "Suriya-Amerika məktəbi"nin adı çəkilən üç cərəyanla təmasının nəticəsi burada müəyyən bədii metodların formalaşması oldu: "göl məktəbi" və transsendentalizm Cübran və ər-Reyhaninin yaradıcılığında romantik metodun təşəkkül tapmasına səbəb oldusa, rus ədəbiyyatı ilə əlaqə və ünsiyyət realist Nüaymәni formalaşdırdı".

Tədqiqatçı məhcər ədəbiyyatı yaradıcılarının ədəbi-bədii üslubunun bütün incəliklərini tədqiqat obyektinə çevirir: "Mühacir yazıçılar yeni ədəbi üslubun yaradıcıları idilər. Onlar mümkün qədər bu üslubu arxaizmlərdən, ağır sintaktik quruluşlardan, müxtəlif növ süni bəzək yığınından azad etmişlər. Bununla bərabər, onlar ərəb klassik ədəbiyyatının ənənə və dəyərlərinə sayğılı münasibət nümayiş etdirmişlər".

Alim ərəb məhcər ədəbiyyatının ən müxtəlif bədii üsluba malik nümayəndələrinin yaradıcılığını araşdırdı: Nüayma yaradıcılığında rus ədəbiyyatının təsiri ilə formalaşan tənqidi realizmi öyrəndi, Cübran yaradıcılığında ingilis poeziyasının təsiri ilə romantik üslubun inkişaf prosesini izlədi, Amerika transsendentalistlərinin Əmin ər-Reyhani və digərlərinin yaradıcılığında oynadığı rolu müəyyənləşdirdi. Bu zaman o, yüzlərlə ədəbiyyat oxuyur, yazıçıların ən məşhur əsərlərini təhlil edir, onların yaradıcılıq metodunu, dünyagörüşünü, nəsr və poeziya dillərinin təkamülünü, lirizmi, müxtəlif qəhrəman obrazlarının xüsusiyyətlərini tədqiq edir, dünya ərəbşünaslığında ilk dəfə olaraq ərəb-Amerika, Qərbi Avropa və rus ədəbi əlaqələrinin məğzi və əhəmiyyətini aşkar edir, ərəb məhcər ədəbiyyatının ən görkəmli nümayəndələrinin bədii üslubunun formalaşmasında Qərb və rus ədəbiyyatlarından mənimsəmə prosesi və onun nəticələrini müəyyənləşdirir.

Alimin gəldiyi qənaətə görə, ədəbi inkişaf prosesinin gedişində maarifçi didaktizm, sentimentalizm cizgiləri qeyd olunan ərəb yazıçıları tərəfindən aradan qaldırılmış, romantizmin və tənqidi realizmin poetikası mənimsənilmişdir. Beləcə onlar içərisində olduqları tarixi gerçəkliyi əks etdirmək üçün çox zəruri olan yeni ideya və formaları özündə daşıyan Qərb mədəniyyəti və ədəbiyyatının nailiyyətlərindən yaradıcı surətdə faydalanmışlar.

Bu yazıçıların hər biri öz yaradıcılıq metoduna xas olan etik və bədii dəyərlər ehtiyatını işə salaraq onu özünəməxsus şəkildə bədii təcrübədən keçirmişdir. Cübran və ər-Reyhani Qərb romantizminə müraciət etmişlər. Lakin ərəb romantik şairlərindən fərqli olaraq, bu yazıçılar yalnız onun zahiri xüsusiyyətlərini mexaniki şəkildə qəbul etməmiş, romantizmi yaradıcı metod kimi, yəni onlara ərəb gerçəkliyinə öz münasibətlərini ifadə etmək imkanı verən yeni nəzər nöqtəsi kimi mənimsəmişlər. Onlar ilk olaraq maarifçiliyin artıq daralmış çərçivəsini qırıb romantizm cəbhəsinə keçmişlər. Cübranın və ər-Reyhaninin yaradıcılığında romantik istiqamət nəinki mənimsənilmiş, həm də zənginləşmiş və mürəkkəbləşmişdir. Bu, bir tərəfdən, ərəb ədəbiyyatının xüsusi ənənələri ilə Qərb romantizmi təcrübəsinin mürəkkəb sintezi nəticəsində, digər tərəfdən, hər iki sənətkarın fərdi istedadı sayəsində baş vermişdir. Beləcə, onlar ümumbəşəri problemlərin qoyuluşu səviyyəsinə yüksəlmiş və dünya ədəbi prosesinin nəinki bərabərhüquqlu iştirakçısı olmaq, həm də yeni bədii dəyərlərin dünya ədəbiyyatına ötürücüsü kimi çıxış etmək imkanı qazanmışlar.

Professor Aida İmanquliyeva təkcə ərəb mühacir şairlərinin romantikasını araşdırmaqla kifayətlənməmiş, onları Qərb romantik poeziyasının görkəmli nümayəndələri ilə müqayisəli surətdə təhlil etmişdir. Lakin tədqiqatını bununla da məhdudlaşdırmayaraq bütövlükdə romantik poeziyanı ədəbiyyatda yeni ruhlu bir hadisə kimi nəzərdən keçirmiş, bu kontekstdə ədəbi-bədii metodlar və onların mahiyyəti haqqında olduqca dəyərli fikirlər irəli sürmüşdür.

Alim araşdırmalarının sonunda belə bir müddəa irəli sürür ki, ərəb ədəbiyyatı xarici ədəbiyyatların nailiyyətlərindən faydalanmasında ilk növbədə məhcər ədəbiyyatının nümayəndələrinə borcludur. Məhcər yazıçıları Qərb ədəbiyyatının pozitiv təsiri orbitində olaraq onun ən yaxşı nailiyyətlərini mənimsəmiş və özlərinə məxsus şəkildə inkişaf etdirmişlər. Öz əsərlərində milli ruhu və milli koloriti qoruyub saxlaya bilən bu yazıçılar yeni ərəb ədəbiyyatının inkişafında əvəzsiz rol oynamışlar. Məhz onların yaradıcılığı sayəsində XX əsr ərəb ədəbiyyatının mövzu dairəsi genişlənmiş, janr tərkibi daha da rəngarəng olmuş, bədii ifadənin yeni formaları yaranmış və ərəb ədəbiyyatı ümumbəşər mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir.

Aida xanımla 15 il birgə çalışan bir insan kimi bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Ulu Tanrı Aida xanımı yaradarkən çox səxavətli olmuş, ona yüksək şəxsi və intellektual keyfiyyətlərlə yanaşı, qibtədoğuran bir zahiri gözəllik də bəxş etmişdi. Onun gözəlliyini vəsf etmək üçün bəlkə də Füzuli qələmi, Vaqif təbi, Ələsgər sözü gərəkdir. Çünki bu zahiri gözəllik onun daxili aləmi, zəngin mənəvi dünyası, incə ruhu və həssas qəlbi ilə tam bir harmoniya təşkil edirdi...

Görkəmli şərqşünas-alim, elm təşkilatçısı, pedaqoq, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın yubileyidir. AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi bu yubileyə böyük həvəslə və ciddi hazırlaşıb. Belə ki, görkəmli alimin yaradıcılığına həsr olunmuş elmi konfrans keçiriləcək. Konfransda alimin keçdiyi yol və elmi yaradıcılığının müxtəlif aspektləri onun həmkarları və tələbələrinin məruzələrində hərtərəfli işıqlandırılacaq. Konfrans əsnasında alimin əziz xatirəsinə ithaf edilmiş və vaxtilə yazdığı geniş ön sözlə çap edilmiş "Ağ günlərin sorağında (İraq ədəbiyyatından seçmələr)" adlı kitabın II nəşri ictimaiyyətə təqdim ediləcək. Eləcə də Şərqşünaslıq İnstitutunun dövri nəşri -"Azərbaycan şərqşünaslığı" dərgisinin növbəti sayı bütövlüklə professor Aida İmanquliyevanın keçdiyi qısa, ancaq çox mənalı və zəngin həyat və yaradıcılığı haqqında bəhs edən məqalələri ehtiva edən sayı oxuculara təqdim olunacaq. Təəssüf doğuran bircə odur ki, onun özü bugünlərdə bizimlə deyil, ona həsr edilmiş tədbirlərimizdə iştirak etmir, gördüyümüz işi dəyərləndirə bilmir. Çox təəssüf ... Onun yoxluğunun acısını biz bu gün də yaşayır, hiss edirik, vaxtsız itkisi ilə barışa bilmirik. Təsəllimiz bircə ondadır ki, onun ruhu bu gün bizimlədir, əsərlərində, ailəsində, övladlarında və davamçılarında yaşayır!

***Gövhər BAXŞƏLİYEVA,***
***AMEA Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik, Milli Məclisin deputatı***

# Azərbaycanın Müdafiə naziri Rusiyanın baş hərbi prokuroru ilə görüşüb



Oktyabrın 8-də Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Baş prokurorunun müavini - baş hərbi prokuror, 1-ci dərəcəli dövlət ədliyyə müşaviri Valeri Petrovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan nazir ölkələrimiz arasında əlaqələrin inkişaf etməsində dövlətlərimizin başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimad əsasında dərinləşdiyini, eləcə də hərbi və hərbi-texniki sahədə işbirliyinin genişlənməsi baxımından zəruriliyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan Zakir Həsənov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə olduğunu, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ali Baş Komandanın tapşırığına əsasən, Azərbaycan Ordusunda aparılan genişmiqyaslı islahatların cinayət hadisələrinin sayının azalmasına səbəb olduğunu diqqətə çatdıran Müdafiə naziri Respublika Hərbi Prokurorluq orqanları ilə birgə həyata keçirilən tədbirlərin əhəmiyyətini də qeyd edib.

Rusiya Federasiyası Baş prokurorunun müavini - baş hərbi prokuror V.Petrov da ölkələrimiz arasındakı əlaqələrin tarixi köklərə əsaslandığını, hər iki ölkənin strateji tərəfdaş olduğunu qeyd edib. O, hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin inkişafı baxımından mühüm rol oynadığını bildirib. Söhbət zamanı qeyd olunub ki, hər iki ölkənin hərbi hüquqşünaslarının səyləri cinayətkarlıqla mübarizənin gücləndirilməsi, qoşunlarda hüquq qaydalarının təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, korrupsiya hallarının istənilən formalarının istisna edilməsi, hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqlarının və qanuni maraqlarının müdafiə edilməsinə yönəldilib.

Tərəflər, həmçinin bu səfərin səmərəli və faydalı, gələcək əlaqələrin isə daimi və sıx olacağına ümidvar olduqlarını bildiriblər.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə oktyabrın 8-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2019-cu il oktyabrın 2-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid olan hissədə icrası, eləcə də bələdiyyə seçkilərinin təşkilinin daha da təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı maarifləndirmə layihəsinin gerçəkləşdirilməsi məsələsinə baxılıb. Cari ildə müxtəlif statuslu, demək olar ki, bütün seçki subyektləri üçün nəzərdə tutulan çoxsaylı maarifləndirmə tədbirləri komissiya üzvləri tərəfindən müzakirə olunduqdan sonra, tərtib edilmiş tədris proqramına uyğun olaraq, ilk irimiqyaslı maarifləndirmə layihəsi kimi dövlət başçısının sözügedən sərəncamına əsasən 2019-cu il oktyabrın 11-də Bakı şəhərində MSK-nın inzibati binasında dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə, 15-17 oktyabr tarixlərində isə dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün yerlərdə dairə seçki komissiyalarının inzibati binalarında seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların keçirilməsinə qərar verilib.

İclasda bəzi seçki dairələrinin seçki məntəqələri üzrə seçicilərin sayının təmsilçilik normalarına uyğunlaşdırılması məsələsi də müzakirə edilib. Komissiyanın qərarı ilə seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi, yerli və digər şərait nəzərə alınmaqla, 14 saylı Xəzər və 28 saylı Sabunçu üçüncü seçki dairələrinin dislokasiyaları daxilində qanunvericiliyin tələblərinə uyğun olaraq əlavə seçki məntəqələrinin yaradılması müvafiq dairə seçki komissiyalarına həvalə edilib.

Komissiyanın iclasında 122 saylı Xankəndi seçki dairəsi dairə seçki komissiyasının tərkibində də dəyişiklik edilib və cari məsələlərə baxılıb.

Xarici qurumların, həmçinin kütləvi informasiya vasitələrinin nümayəndələri iclasda iştirak ediblər.

**Qərar № 6/20**

## Mərkəzi Seçki Komissiyasının 2 oktyabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası**
**Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2 oktyabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***8.10.2019-cu il***

**Qərar № 6/21**

## Cari ildə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar dairə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün maarifləndirmə tədbirlərinin təşkilinə dair

**Azərbaycan Respublikası**
**Mərkəzi Seçki Komissiyasının Qərarı**

"Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid hissədə icrası ilə əlaqədar, habelə cari ildə keçiriləcək bələdiyyə seçkilərinin təşkilinin daha da təkmilləşdirilməsi məqsədilə dairə seçki komissiyalarının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün yeni maarifləndirmə tədbirlərinin təşkil edilməsinə dair hazırlıq işləri başa çatmışdır.

Maarifləndirmə materiallarının həcminə və kursların keçirilmə müddətinə uyğun olaraq tədris proqramları və cədvəlləri hazırlanıb, dairə seçki komissiyalarının sədrləri üçün Mərkəzi Seçki Komissiyasının inzibati binasında 1 günlük seminar-müşavirənin, dairə seçki komissiyalarının digər üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün isə 3 günlük regional kursların keçirilməsi məqsədəmüvafiq hesab edilib.

Keçiriləcək tədbirlərin səmərəliliyinin artırılması məqsədilə Mərkəzi Seçki Komissiyası üzvləri, Katibliyinin əməkdaşları və digər aidiyyəti qurumların nümayəndələrinin bu prosesə cəlb edilməsi də nəzərdə tutulub.

Qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid hissədə icrası ilə əlaqədar tərtib edilmiş tədbirlər planına və tədris proqramlarına uyğun olaraq aşağıdakı maarifləndirmə tədbirləri keçirilsin:

1.1. Dairə seçki komissiyalarının sədrləri üçün 1 günlük seminar-müşavirə (2019-cu il oktyabrın 11-də Bakı şəhərində, Mərkəzi Seçki Komissiyasının inzibati binasında);

1.2. Dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar (2019-cu il 15-17 oktyabr, müvafiq DSK-ların inzibati binalarında).

2. Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları öz səlahiyyətləri daxilində bu qərarın icrası ilə əlaqədar müvafiq tədbirlər görsün.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***8.10.2019-cu il***

**Qərar № 6/22**

## Bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılmasına dair

**Azərbaycan Respublikası**
**Mərkəzi Seçki Komissiyasının Qərarı**

Mərkəzi Seçki Komissiyası 2019-cu il mayın 29-da Azərbaycan Respublikasında cari ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi barədə qərar qəbul etmişdir.

Mərkəzi Seçki Komissiyası tərəfindən seçici siyahılarının dəqiqləşdirilməsi zamanı 14 saylı Xəzər və 28 saylı Sabunçu üçüncü seçki dairələrinin ərazisində mövcud olan bəzi seçki məntəqələrində seçicilərin sayının Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.3.1-ci maddəsi ilə nəzərdə tutulmuş saya uyğun olmadığı müəyyən edilmişdir. Bununla əlaqədar olaraq həmin seçki dairələrinin dislokasiyaları daxilində əlavə seçki məntəqələrinin və məntəqə seçki komissiyalarının yaradılması müvafiq dairə seçki komissiyalarına həvalə edilməlidir.

Seçki Məcəlləsinin 35.2-ci maddəsinin tələbinə əsasən, seçki məntəqələri müvafiq dairə seçki komissiyaları tərəfindən müvafiq icra hakimiyyəti orqanı və bələdiyyə qurumu ilə razılaşdırılmaqla, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi, yerli və digər şərait nəzərə alınmaqla yaradılır.

Qeyd edilənlərə əsasən, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 17.6.19-cu, 19.4-cü, 28.4-cü və 35-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 14 saylı Xəzər və 28 saylı Sabunçu üçüncü seçki dairələrinin dislokasiyaları daxilində qanunvericiliyin tələbləri nəzərə alınmaqla əlavə seçki məntəqələrinin yaradılması və yeni məntəqə seçki komissiyalarının qısa müddət ərzində formalaşdırılması müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***8.10.2019-cu il***

**Qərar № 6/23**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası**
**Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Mədinə Fəxrəddin qızı Abbasova 122 saylı Xankəndi seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

***8.10.2019-cu il***

# Milli maraqları qətiyyətlə və layiqincə təmin edən lider

## İlham Əliyevin Soçi səfəri Azərbaycanın beynəlxalq imicinin daha da yüksəlməsinə təsir edən mühüm siyasi hadisə oldu

*Əvvəli 1-ci səh.*

“Artıq uzun müddətdir ki, iqtisadi əlaqələrimiz müsbət dinamika nümayiş etdirir. Əmtəə dövriyyəsinin hər il 20-25 faiz artması bu sahədə tərəqqinin ən yaxşı göstəricisidir. Düşünürəm ki, işlərin belə gedişi daha çox onunla bağlıdır ki, Rusiya-Azərbaycan tərəfdaşlığı strateji əhəmiyyətli prioritetlər üzərində qurulur. Əbəs yerə əməkdaşlığın müxtəlif aspektlərini əhatə edən beş “yol xəritəsi” işlənib hazırlanmayıb”. Bu fikirləri isə Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev respublikamızın geosiyasi proseslərdə rolunu və onun Rusiya ilə münasibətlərinin səviyyəsini təhlil edərkən bildirib.

Bəli, Azərbaycan və Rusiya arasında bu gün qarşılıqlı anlaşma mühiti mövcuddur. Son illərdə isə əlaqələr yüksələn xətt üzrə daha sürətlə inkişaf edib, dövlət başçılarının qarşılıqlı səfərləri əməkdaşlığın genişlənməsinə güclü təkan verib. Prezidentlər arasında bu cür intensiv görüşlərin keçirilməsi həm də Azərbaycan-Rusiya münasibətlərinin strateji mahiyyət daşımasının təsdiqidir. “Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və hətta bir neçə aylıq kiçik fasilə bizə pauza kimi təsir bağışlayır. Ölkələrimiz arasında münasibətlər strateji əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, biz bir-birimizi strateji tərəfdaşlar adlandırırıq. Bu gün biz ikitərəfli münasibətlərin çox geniş gündəliyini nəzərdən keçirdik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirdik. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Dövlət başçılarının və digər rəsmi şəxslərin müntəzəm görüşləri əməkdaşlığımızın dərinləşməsinə şərait yaradır” deyə Soçi şəhərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Prezident İlham Əliyev bildirib.

Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin müsbət nəticələri özünü təkcə siyasi sferada göstərmir. Belə ki, isti siyasi münasibətlərdən qaynaqlanan əməkdaşlıq telləri beynəlxalq tərəfdaşlıqdan tutmuş iqtisadi və hərbi sahələrə qədər geniş spektri əhatə edir. Ötən il Azərbaycan-Rusiya ticarət dövriyyəsi 20 faiz, bu ilin yanvar-avqust aylarında isə 24 faiz artıb. Azərbaycan ilə Rusiya arasında ticarətin yüksək templərlə artması strateji əməkdaşlığımızın mühüm göstəricisi olmaqla, Azərbaycan Prezidentinin xarici iqtisadi əlaqələrin genişləndirilməsi, qeyri-neft ixracının stimullaşdırılması istiqamətində qəbul etdiyi mühüm qərarların, görülən sistemli və ardıcıl işlərin məntiqi nəticəsidir.

Təbii ki, Azərbaycan Prezidentinin Rusiya Federasiyasına səfəri, səfər çərçivəsində aparılan müzakirələr iki ölkə arasındakı strateji əməkdaşlığı daha da möhkəmləndirməklə yanaşı, əlaqələrin bütün sahələrdə dərinləşməsinə, mövcud geniş potensialın daha dolğun reallaşdırılmasına, dövlət başçılarının müəyyənləşdirdiyi prioritetlər üzrə iqtisadi-ticarət əməkdaşlığının inkişafına böyük təkan verəcək.

### Düşmənin təbliğatını puç edən NİDA

İlham Əliyevin Rusiyaya səfərinin əsas məqsədi “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak etmək idi. Qeyd edək ki, Azərbaycan Prezidenti dünyada böyük maraqla izlənən bu iclasda Vladimir Putinin dəvəti ilə iştirak edirdi.

Öncə onu qeyd edək ki, Prezident İlham Əliyevin müstəqil, ölkənin maraqlarına əsaslanan siyasəti sayəsində respublikamız beynəlxalq müstəvidə çoxlu diplomatik uğurlar əldə edib. Bu dövrdə sülh danışıqları prosesində Ermənistanın tamamilə çıxılmaz vəziyyətə salınması İlham Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsi, Azərbaycanın diplomatik sahədə böyük uğurlarıdır. İlham Əliyev hər bir beynəlxalq kürsüdən Ermənistanın küncə daha da sıxışdırılması üçün diplomatik peşəkarlıqla istifadə edir.

“Valday” Beynəlxalq Diskussiya Klubunun iclası da bu baxımdan mühüm siyasi hadisə kimi tarixə düşdü. Çıxışı zamanı Prezident İlham Əliyev diqqəti Dağlıq-Qarabağ münaqişəsinə yönəltdi və dünyanın maraqla izlədiyi bu forumdan bir daha Qarabağın Azərbaycan torpağı olduğunu diqqətə çatdırdı, Paşinyanın avqustun əvvəlində söylədiyi sözlərin yalan olduğunu bəyan etdi: “Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də “Valday” forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə”. Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Beləliklə, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin qətiyyətli və haqlı mövqeyini bir daha bütün dünyaya bəyan etdi. Azərbaycan Prezidentinin Ermənistanın baş nazirinin sayıqlamasına cavab olaraq onu yalan adlandırması və Qarabağın əzəli, əbədi Azərbaycan torpağı olduğunu vurğulaması cəsarətli, beynəlxalq hüququn normalarına əsaslanan çıxış idi. Milli maraqlara əsaslanan bu bəyanat həm də işğalçı ölkə rəhbərliyinə yerində verilmiş layiqli və tutarlı cavab idi. “Qarabağ Azərbaycandır və nida” cavabı düşmənin bütün təbliğatını puç etdi.

### Sergey Markov: “İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət qazanıb”

Siyasi Araşdırmalar İnstitutu qeyri-kommersiya tərəfdaşlığının baş direktoru Sergey Markov bildirib ki, İlham Əliyevin çıxışı Beynəlxalq Diskussiya Klubunun iclasında ən güclü bəyanatlardan biri oldu: “Prezident İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət qazanıb. “Valday” Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasında iştirak edən akademik və media birliklərinin nümayəndələri Dağlıq Qarabağ münaqişəsi barədə lazımınca məlumatlı deyildi. Səbəb odur ki, bu birliyin mövqeyi erməni diasporunun təsirinə məruz qalmış KİV tərəfindən yayılan informasiya əsasında formalaşır. Bu mənada, Azərbaycan Prezidenti mürəkkəb bir auditoriya qarşısında çıxış edirdi. Lakin Prezident İlham Əliyev öz zəngin təcrübəsi və böyük diplomatik istedadı sayəsində mövqeyini dəqiq və aydın şərh etməyə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması kontekstində Azərbaycanın maraqlarının və fəaliyyətinin məntiqini izah etməyə müvəffəq oldu. Hesab edirəm ki, onun çıxışı Beynəlxalq Diskussiya Klubunun iclasında ən güclü bəyanatlardan biri oldu”.

Qeyd edək ki, sülh danışıqları prosesi mahiyyət etibarilə Ermənistanın destruktivliyi ucbatından dalana dirənib. Aydın görünür ki, bu ölkənin yeni rəhbərliyi də sülhyaratma prosesini açıq-aşkar ləngidir. Bunu həm Ermənistan rəhbərliyinin təxribat xarakterli bəyanatları, həm də erməni siyasətçilərinin anlaşılmaz kursu göstərir. Eyni zamanda belə bir təəssürat yaranır ki, onların Qarabağ məsələsinə dair heç bir dəqiq strategiyası yoxdur. Ermənistanın bu mövqeyi beynəlxalq səviyyədə də tənqidlə üzləşir.

Beynəlxalq münasibətlərin aktual məsələlərinin müzakirəsi üçün önəmli platforma olan “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında Prezident İlham Əliyevin etdiyi tarixi çıxışı geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

Bu mənada İlham Əliyevin bu bəyanatı həm də bütün dünyaya bir mesaj oldu. Dövlət başçısı bir daha bəyan etdi ki, Azərbaycan torpaqlarının işğal altında olması ilə heç vaxt barışmayacaq və istənilən vasitə ilə ərazilərini azad edəcək.

**_Rəşad CƏFƏRLİ,_**
**_“Azərbaycan”_**






Deməsək olmur

# Təbiətə və gözəlliyə qarşı nankorluq



Tanınmış rus yazıçısı Anton Pavloviç Çexovun bir çox dillərə tərcümə olunmuş “Vanka” hekayəsi var. Əsərin qəhrəmanı - 9 yaşlı kəndli oğlan Vankanı şəhərdə yaşayan çəkməçiyə şagirdliyə verirlər. Bu, Vankanın ürəyincə olmur, qısası, o, şəhərdə dözüm gətirmir və vəziyyəti babasına məktubla bildirmək qərarına gəlir. Məktubunu qatlayıb zərfə qoyur və ünvanı qeyd edəcəyi yerdə “Kəndə, babama” sözlərini yazır. Artıq bir çox dillərdə, o cümlədən bizim də dilimizdə zərbi-məsələ çevrilmiş “Kəndə, babama” ifadəsinin mənbəyi bax budur.

Doğrusu, nə “Vanka” hekayəsi yada düşürdü, nə də bu əsərin eyniadlı qəhrəmanı. Əgər paytaxtın yeni yaşayış massivlərinin birində çəkilmiş iri su borularının yanında dayanıb öz-özünə danışan ixtiyar yaşlı kişi diqqətimizi cəlb etməsəydi... Onunsa diqqətini boruların üstündə qırmızı rəngli divar boyası ilə yazılmış “Seva, mən səni sevirəm” sözləri cəlb etmişdi.

Kişi başını bulayır, hey deyinirdi:

- Ay nadan, kimsən sən? Bu nə biabırçılıqdır? Oğulsan, sözünü aşkar de. El adəti ilə qızın dədəsinin qapısına elçi göndər. Seva kimdir? Sevinc, Sevda?.. Bu qəsəbədə eyniadlı yüz qız var. Hansıdır sevdiyin? Belə sevgimi olur? Camaatın uşağını niyə biabır edirsən? Ay nadan,...

Kişi sakitləşmək bilmirdi. Binəva qoca haradan bilsin ki, bu cür ünvansız “məktub”lar şəhərin hər yerində, lap mərkəzində də saysız-hesabsızdır. Divarlarda, səkilərdə... Məhəbbət oxu daşa dəyənlər isə qəzəblənib zibil qutularının üstündə adlar yazır, ürək şəkli çəkib onu çalın-çarpaz xətlərlə “dağlayır”lar. “Müasir” cavanların bəziləri hətta informasiya-kommunikasiya texnologiyalarının yeniliklərini də ağacların, daşların üstünə gətiriblər. Sevdiklərinə ağlayan, gülən, yalvaran, acıqlanan smail şəkilləri göndərirlər.

Əvvəlki illərdə bu cür “məktub” müəllifləri öz ürək sözlərini, həmçinin avtobusların oturacaqlarının söykənəcəyində yazmağı xoşlayırdılar. İndi şəhər nəqliyyatının bir çoxunda kameralar quraşdırılıb. Həm də Bakı artıq meqapolisə çevrilib, bir neçə milyon insanın yaşadığı və qonaq gəldiyi şəhərdir. Avtobuslarda daim sıxlıq olur. Odur ki, ünvansız məktub yazan Vankaların əl-qolu bağlanıb. İndi onlar ayaqlarını işə salaraq bir az da irəliyə addımlayıblar. Dənizkənarı Milli Parkda Xəzərin sahili boyu səpələnmiş irili-xırdalı daşların üstünü “bəzəyirlər”.

Amma yox... Bunları Vankaya bənzətmək o qədər də düzgün deyil. Vanka XIX əsrin sonunda yaşayırdı, savadsız bir kəndli balası idi və yazdığı məktub da ən kövrək və səmimi duyğulardan qaynaqlanırdı. İndi XXI əsrdir. Yaşadığımız ölkə isə başdan-başa savadlılar diyarıdır. Gənclərin əksəriyyəti ali olmasa da, orta təhsil alıb, ən azından natamam orta təhsil haqqında, yəni 9 il məktəbdə oxuduqları barədə şəhadətnamələri var. Bəs bu dayazlıq, mədəniyyətsizlik, cahillik nədən yaranır?

İş o yerə çatıb ki, sözügedən üzdəniraq cavanlar adlarını hətta kaktusların yarpaqlarında, digər ağacların iri budaqlarında və gövdələrində yazırlar. Adını kaktusun yarpağına həkk edən Anar məgər düşünmür ki, Bakıda onun neçə-neçə adaşı var? Onsuz da onun hansı Anar olduğunu heç kəs bilməyəcək!

Bütün bunlar ətrafı çirkləndirmək, təbiətə əl qaldırmaq və dövlətin malına ziyan vurmaqdır. Bu cür yazılardan yarpaqları cadar-cadar, gövdələrinin qabıqları ovum-ovum olan ağacları böyütmək, yetişdirmək üçün nə qədər insan əməyi sərf edilir. Hələ onu demirik ki, bu ağacların, bitkilərin bir çoxu xaricdən alınıb gətirilir. Gətirilir ki, şəhərimiz daha da gözəlləşsin, parklarımızın bitki örtüyü bir az da zənginləşsin, uşaqlarımızın, gənclərimizin təkcə Azərbaycanın deyil, bütün dünyanın florası haqqında əyani təsəvvürü olsun.

Bəzi cavanlar isə təbiətə və gözəlliyə qarşı bax, bu cür nankorluq edirlər! Onlar paytaxtımıza bölgələrdən gələn qonaqlara və dünyanın müxtəlif guşələrindən təşrif buyuran turistlərə də pis nümunə göstərirlər. Məsələn, Masallıdan gələn və öz adını qeyd etməyi unudan gənc Türkmənistandakı dostu ilə münasibətlərinin daş kimi möhkəm olduğunu bildirmək istəyib. Omskdan gələn Vitya isə günəşli Azərbaycanın paytaxtında sevdiyi qız üçün darıxdığını daş üzərində ifadə edib.

Bu cür “yaradıcılığa” meyilli olan Bakı sakinləri də öz növbələrində, yəni başqa yerlərə gedəndə orada “avtoqraf” qoyurlar. Məsələn, Qobustanda tarixi daş abidələri korlayan nə qədər istəsəniz imza var.

Bəzi cavanlar daşda-ağacda yalnız adını, yaxud özü üçün uydurduğu ləqəbi yazır. Yəqin düşünür ki, bununla əbədiləşəcək, tarixə düşəcək...

Əvvəla, tələsmək lazım deyil, onsuz da heç bir insan dünyanı tutub qalası deyil. 100-ü də başa vursan, axır bir gün adın daş üzərinə həkk olunasıdır. Tanınmaq, sayılmaq, nəhayət, yaddaşlarda qalmaq istəyirsinizsə, bunun üçün daş-divarı cızmaq, gül-çiçəyi “yaralamaq” lazım deyil. Yaxşı işlər görmək, oxumaq, çalışmaq, qurmaq-yaratmaq lazımdır!

**_Flora SADIQLI,_**
**_Ağaəli MƏMMƏDOV (foto),_**
**_“Azərbaycan”_**

# Azərbaycan milli pavilyonu “Pekin Ekspo 2019” sərgisində “Xüsusi mükafat”a layiq görülüb



Azərbaycan milli pavilyonu eksteryer-interyer konsepsiyası və dizaynına görə “Pekin Ekspo 2019” sərgisində “Xüsusi mükafat”a (ikinci yer) layiq görülüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanla yanaşı, bu mükafatı Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Belçika, Sinqapur və Niderland da alıb. Birinci yer üzrə mükafatı isə Qətər, Böyük Britaniya, Almaniya və Yaponiya qazanıb.

Qeyd edək ki, “Pekin Ekspo 2019” sərgisi aprelin 29-dan oktyabrın 7-dək davam edib.

Azərbaycan sərgidə Heydər Əliyev Mərkəzinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə milli pavilyonla təmsil olunub.

“Azərbaycan: təbiət və incəsənətin harmoniyası” adlanan milli pavilyonun ümumi konsepsiyası ölkəmizin öz tarixi və ənənələrinə sadiq qalaraq daim inkişafda olduğunu nümayiş etdirib.

# *Bakı Polisi:* "İctimai asayişin pozulması ilə müşayiət olunan küçə yürüşünə cəhdin qarşısı alınıb"

Özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurum və Azərbaycan Xalq Cəbhəsi Partiyası 50 nəfərin iştirakı ilə piket keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib.

Bakı Şəhər Baş Polis İdarəsindən AZƏRTAC-a bildiriblər ki, müraciətə baxıldıqdan sonra toplantının təşkilatçıları tədbirin oktyabrın 8-də saat 15:00-dan 16:00-dək Bakı Şəhər İcra Hakimiyyəti ilə Dövlət İqtisad Universitetinin inzibati binalarının arasında yerləşən ərazidə keçirilməsi barədə məlumatlandırılıblar.

Piket ərəfəsində təşkilatçılar Bakı Şəhər Baş Polis İdarəsinə dəvət olunaraq aidiyyəti qanunvericilik aktlarının tələbləri nəzərlərinə çatdırılıb, tədbirin dinc, qanuni qaydada, yazılı xəbərdarlıqda göstərilmiş və toplantıya qoyulmuş şərtlərə uyğun təşkil olunması barədə xəbərdar ediliblər.

Lakin onlar "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun 9-cu maddəsinin V və 12-ci maddəsinin III hissələrinin tələblərini kobud surətdə pozaraq oktyabrın 8-də tədbir yerinə razılaşdırılmış vaxtdan qabaq toplaşıb, piketə dəstək adı altında qanunsuz aksiyalarına qoşulmaq barədə vətəndaşlara çağırışlar edib, toplantıya 50-dən çox tərəfdarını cəlb etməklə müəyyən olunan ərazidən kənara çıxmağa, qanunsuz küçə yürüşü keçirməyə cəhd göstəriblər.

Nəticədə həmin ərazidə nəqliyyatın hərəkəti iflic olub, piyadaların sərbəst gediş-gəlişinə maneçilik yaranıb, ətrafdakı insanlara qarşı kobudluğa və digər qanunazidd hərəkətlərə yol verilib.

İctimai asayişin pozulması ilə müşayiət olunan küçə yürüşünə cəhdin və aksiya iştirakçılarının hüquqazidd əməllərinin qarşısı alınıb.

Piket üçün müəyyənləşdirilən vaxtdan xeyli qabaq müxtəlif yerlərdə toplaşaraq hüquq qaydasını pozmuş 17 şəxs xəbərdar edilib, 4 nəfər barəsində inzibati protokol tərtib olunub. Həmçinin polisin qanuni tələblərinə tabe olmayaraq küçə yürüşü keçirməyə cəhd edən 5 nəfər haqqında toplanmış inzibati materiallar məhkəməyə göndəriləcək, sərxoş halda olan və üzərində soyuq silah aşkarlanıb götürülmüş daha bir piket iştirakçısının əməlinə hüquqi qiymət veriləcək.

# "Azercell" ilə ən sevilən filmləri izləyin

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell" abunəçilərini müasir dövrün trendlərinə uyğun xidmətlərlə sevindirir. Texnoloji yeniliklərin tətbiqi vasitəsilə abunəçilərinə ən yaxşı müştəri təcrübəsi yaşatmağı hədəfləyən "Azercell" ilə film seyr etmək artıq çox asandır. Belə ki, "Azercell"in təklif etdiyi "İVİ" xidməti istənilən zövqə uyğun 100 000-dək filmi məkandan asılı olmayaraq yüksək keyfiyyətdə izləmək imkanı verir.

"İVİ" xidmətindən günlük istifadə haqqı 0.40 AZN, aylıq abunəlik isə 5.99 AZN təşkil edir. Günlük abunəlik üçün GUN, aylıq abunəlik üçün AY açar sözünü 3333 qısa nömrəsinə göndərmək kifayətdir. "İVİ"yə ilk dəfə qoşularkən günlük abunəliyi seçən istifadəçilər 7 gün, aylıq abunəliyi seçən istifadəçilər isə 14 gün müddətində xidmətdən ödənişsiz istifadə edə biləcəklər. "İOS" və "Android" əməliyyat sistemlərini dəstəkləyən "İVİ" tətbiqini Applestore və ya Google Play vasitəsilə yükləmək mümkündür. Məlumat üçün bildirək ki, müxtəlif janrlarda filmləri özündə cəmləyən bu xidmət eyni zamanda 5 müxtəlif cihazda, ən əsası isə reklam olmadan filmləri seyr etmək imkanı verir.

***"Azərbaycan"***

# *Azərbaycan XİN:* "Cənubi Koreya vətəndaşlarının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb"

Cənubi Koreya Respublikasının vətəndaşları Ji Sun Kim, Lee Soo Jeong və Mun Kyeong Won Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adlarının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş ediblər.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Məktublarında Ji Sun Kim, Lee Soo Jeong və Mun Kyeong Won Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi, eləcə də ölkəmizin qanunlarına hörmət etdiklərini bəyan edir və işğal olunmuş ərazilərə sözügedən səfərləri ilə heç bir halda ölkəmizin ərazi bütövlüyü və suverenliyini şübhə altına almaq niyyətində olmadıqlarını bildirirlər. Həmçinin müraciətlərində onlar səfərin törədə biləcəyi nəticələr barədə məlumatsız olduqlarını və gələcəkdə bu cür qanunsuz səfərlərdən çəkinəcəklərini qeyd ediblər.

Cənubi Koreya Respublikasının vətəndaşlarının müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

# "Klassik loto" tirajlı lotereyasının şərtləri və qazanılmış "Cek Pot"lar barədə məlumat

AZƏRLOTEREYA




"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti tərəfindən keçirilən "Klassik loto" tirajlı lotereyası həftənin çərşənbə günü "Space" telekanalı vasitəsilə canlı efirdə yayımlanır. "Klassik loto" tirajlı lotereya biletinin qiyməti 1 (bir) manat müəyyən edilmişdir. "Klassik loto" tirajlı lotereyasının uduş fondunun oynanılması lototron vasitəsilə həyata keçirilir.

Lototronda 1-dən 90-dək nömrələnmiş şarlar yerləşdirilir. Şarlar qarışdırılaraq təsadüf prinsipinə əsasən lototrondan bir-bir ardıcıllıqla çıxarılır. Oyunun mahiyyəti, lototrondan çıxmış şarların nömrələrinin lotereya biletinin lövhələrində əks olunmuş rəqəmlər ilə üst-üstə düşməsindən ibarətdir. Lotereya biletinin üzərində iki oyun lövhəsi əks olunmuşdur. "Klassik loto" tirajlı lotereyasında lotereya həvəskarlarını möhtəşəm "Cek Pot" və "Meqa Pot" pul mükafatları öz şanslı sahiblərini gözləyir.

Lotereya biletlərinin satışı "Lotto Yayım" MMC, "Caspiantech" MMC, "Mobil loto", www.azerlotereya.com veb saytı vasitəsilə həyata keçirilir. "Azərlotereya" ASC-nin yeni innovativ layihəsi olan Mobil tətbiq (Mobil application) artıq lotereya həvəskarlarının istifadəsinə verildi. "Mobil tətbiq" proqram təminatını "Android" və "İOS" əməliyyat sistemləri ilə təchiz olunmuş smartfonlar vasitəsilə AppStore və ya Playmarketdən yükləyə bilərsiniz. "Mobil tətbiq" vasitəsilə biletləri yoxlamaq, tirajların nəticələri ilə tanış olmaq və lotereya biletlərini əldə etmək mümkündür.

2019-cu ilin 8 ayı ərzində "Klassik loto" tirajlı lotereyasında 2 ədəd ümumi məbləği 125 000 manat təşkil edən "Meqa Pot" pul mükafatı qazanılmışdır. Bunlardan 113 000 və 13 000 manat olmaqla "Meqa Pot" pul mükafatı lotereya qaliblərinə ödənilmişdir.

Azərbaycan Respublikasının ərazisində "Azərlotereya" ASC-nin təşkil etdiyi lotereya oyunlarında 18 yaşına çatmış şəxslər könüllü şəkildə iştirak edə bilər.

"Azərlotereya" ASC hər bir lotereya iştirakçısına uğurlar arzulayır.

Lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

***Sizin "Azərlotereya"***

## B İ L D İ R İ Ş

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2019-cu il üçün xərclər smetasında "mətbəə xərcləri" (221200) maddəsinə ayrılmış vəsaitlər hesabına kotirovka sorğusu elan edir.***

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11.10.2019-cu il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov. Ünvan: Bakı şəhəri, S.Əsgərova küç., 85 Telefon: (012) 594-17-26**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminin yaradılması xidmətlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirmək niyyətindədir.

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 18 oktyabr 2019-cu il saat 17:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 2019-cu il 21 oktyabr saat 11:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

*Tender komissiyası*

# Baki Şəhər İcra Hakimiyyəti "Generator avadanlığının satınalınması" ilə əlaqədar

## *açıq tenderə dəvət edir*

**Lot - 1 Generator avadanlığının satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı:**

Lot - 1: 250 AZN

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**H/H: AZ92CTRE00000000000002518331**
**VÖEN: 1700109031**
**BANK: Dövlət Xəzinədarliği Agentliyi**
**KOD: 210005**
**VÖEN (bank): 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**
**BSK: 7 BTK: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər

1. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 % -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 16.10.2019 12:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 25.10.2019 12:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 28.10.2019 12:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

*E-şərtlər toplusunu 09.10.2019 12:00 tarixindən sonra əldə edə bilərsiniz*

*Tender komissiyası*

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin avadanlıqlarla təchizatının satın alınması üzrə keçirilən

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 (iki yüz ) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/H: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **24.10.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29.10.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.10.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

# Beynəlxalq aləm

## Honqkonqda 77 nəfər maska taxdıqlarına görə tutuldu



Dünən Honqkonq polisi hökumətin qadağasına məhəl qoymayaraq maska taxan azı 77 nəfəri saxlamışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Xatırladaq ki, ötən cümə günü Honqkonq hökuməti nümayişlər və kütləvi tədbirlər zamanı maska taxmağa qadağa qoymuşdur. Bu fərmanı pozanları bir ilədək həbs cəzası və 25 min Honqkonq dolları (3,2 min ABŞ dolları) məbləğində cərimə gözləyir.

## Əfqanıstan universitetində partlayış



Dünən Əfqanıstanda Qəznə Universitetinin fakültələrinin birində bomba partlaması nəticəsində 19 nəfər yaralanmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, bomba pedaqoji fakültənin auditoriyalarının birində yerləşdirilmişdi. Yaralılar xəstəxanalara aparılmışdır. Onlardan üçünün vəziyyəti ağırdır.

Bu terror aktına görə hələ ki heç bir təşkilat məsuliyyəti üzərinə götürməmişdir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Gəncə Körpütikinti-2" Açıq Səhmdar Cəmiyyəti Müşahidə Şurasının sədri Aqibət Məmmədova anası

**TAVAT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəydən Məzahir Əliyev və Rüfət Əkbərov Aqibət Məmmədova anası

**TAVAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8965
Sifariş 3357
Qiyməti 40 qəpik